www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 avqust 2015-ci il Cümə axşamı № 182 (6210) Qiymətı 40 qəpik

Xəbər

## Deputatın tutdurduğu qarovulçuya 12 il cəza verildi

yazısı səh.14-də

Gündəm

### Zakir Həsənov orduda ciddi islahatlara start verdi



Xeyli zabit cəzalandırıldı; Müdafiə Nazirliyi: "Xəbərdarlıqdan nəticə çıxarmayan şəxslər barədə müvafiq qərarlar qəbul edilib..."

yazısı səh.5-də

### Hakimiyyətdən seçkini boykot çağırışlarına reaksiya

yazısı səh.6-da

### AMİP Etibar Məmmədovun seçkiyə qatılacağından xəbərsizdir

yazısı səh.7-də

### ADP ilə Ümid seçkiyə ayrılıqda qatılası oldular

yazısı səh.6-da

### Müsavat başqanı Avropa İttifaqının təmsilçiləri ilə görüşdü

yazısı səh.7-də

### "Ağ Blok"un təmsilçisi ölkə gəncliyinə müraciət etdi

yazısı səh.7-də

### Qafqaz uğrunda ABŞ-Rusiya rəqabəti şiddətlənib

yazısı səh.8-də

### Ərzağın növbəti bahalaşma dalğası gəldi

yazısı səh.12-də

### Neft bumu bitdimi - ekspertlərdən qorxulu proqnozlar

yazısı səh.11-də

### İqtidar xarici medianın qəzəbindən qoruna bilərmi...

yazısı səh.10-da

### Mərkəzi Bankdan kiçik banklara "məsuliyyətli zərbə"

yazısı səh.11-də

## Bakıdan Kremlə "yumşaq güc" nümayişi

# RUSİYAYA BAĞLI 2 GENERALIN HƏBSİNƏ HAZIRLIQ GEDİR - şok gəlişmə

Hakimiyyət "Avrasiya Hərəkatı"na qarşı hərəkətə keçir; qurumun yaradıcıları olan Nəriman İmranov və İlqar Qasımovun tezliklə saxlanılacağı haqda məlumat yayılıb; Moskvanın ölkəmizdəki "5-ci kolon"çularının "ovu" başlayır?




yazısı səh.9-da

# AXCP Əli Kərimlidən alınır

Narazı cəbhəçilərdən revanş; Azərbaycan siyasətində zəlzələ kimi gəlişmə; **Razi Nurullayev sədr olur:** "Möhürü və sədrliyi Əli Kərimlidən alacağıq"

yazısı səh.4-də



### Hacı İbrahimin 240 min dollarlıq saatı oğurlandı

yazısı səh.5-də



Xalidə Hacıyeva

### Cavid Hüseynovun anası "Yeni Müsavat"a danışdı

yazısı səh.3-də



### Kərəm Həsənovla başçı müavini davasının təfərrüatları

yazısı səh.5-də

# 20 avqust 2015

# Azay Quliyev Şirvanda seçiciləri ilə görüşdü


Azay Quliyev

**Milli Məclisin deputatı Azay Quliyev Şirvanda seçiciləri ilə növbəti görüşünü keçirib. Millət vəkili görüşdə iştirak edən Şirvan sakinlərinin müraciət və şikayətlərini dinləyib, üzləşdikləri problemlərin həlli istiqamətində müvafiq qərarlar qəbul edib.**

Görüş zamanı üç nəfər Şirvan sakininin Bələdiyyənin səlahiyyətlərinə aid qaldırdıqları məsələlər, üç nəfər seçicinin işsizlik problemi, Upromxor yaşayış massivində Kür daşqınları zamanı evləri qəzalı vəziyyətə düşmüş yeddi ailə üçün FHN tərəfindən yeni evlərin tikintisi, eləcə də bir nəfər Qarabağ müharibəsi veteranı və bir nəfər Qarabağ əlilinin sosial təminat məsələsi millət vəkilinin köməkliyi ilə öz müsbət həllini tapıb.

# Polis generalının oğluna hökm oxundu


Şərif Əsədullayev

**Daxili İşlər Nazirliyinin (DİN) İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin rəisi, general-mayor Şərif Əsədullayevin oğluna hökm oxunub.**

APA-nın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azad Məcidov sədrliyi ilə keçirilən prosesdə Tamerlan Əsədullayevin cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. Məhkəmənin hökmü ilə T. Əsədullayevə şərti cəza verilib və o, məhkəmə zalından azadlığa buraxılıb.

Qeyd edək ki, bu il aprelin 10-da Bakının Yasamal rayonunda fəaliyyət göstərən "Senator" restoranında dava-dalaş baş verib, bir nəfər bıçaqlanıb.

Həmin faktla bağlı Yasamal Rayon Polis İdarəsinin İstintaq şöbəsində Cinayət Məcəlləsinin 126.2.4-cü (qəsdən sağlamlığa ağır zərər vurma) və 221.3-cü (xuliqanlıq) maddələri ilə cinayət işi başlanıb.

Tamerlan Əsədullayev iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilərək ona həmin maddələrdə nəzərdə tutulan ittiham elan olunub və Yasamal Rayon Məhkəməsinin müvafiq qərarı ilə barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib.

# 24 yaşlı gəlin 3 uşağını ataraq evdən qaçdı


Şəlalə Rüstəmova

**Ucar rayonunda gənc ana üç körpəsini evdə qoyaraq qaçıb. BAKU.WS-in məlumatına görə, rayonun Qaracallı kəndində yaşayan 24 yaşlı Şəlalə Rüstəmova gecə saatlarında evdən çıxaraq naməlum istiqamətə gedib. Onun hara getməsindən ailə üzvlərinin xəbəri olmayıb. Qayınatası Azər Rüstəmovun sözlərinə görə, Şəlalənin yataq otağında olmadığını görəndə ilk olaraq ağıllarına gəlinin intihar etməsi və yaxud ailəni qorxutmaq üçün haradasa gizlənməsi gəlir.**

Gecə saatlarında Şəlaləni axtaran zaman məlum olub ki, gəlin özünə məxsus qızılları və qayınatasına məxsus mobil telefonu, həyətdə olan avtomabilin açarını götürərək evdən qaçıb.

Olay baş verən gecə ailə ilk olaraq Şəlalənin valideyinlərinə xəbər verib. Qayınananın sözlərinə görə, qızının evinə gələn Şəlalənin valideynləri özlərini bir qədər şübhəli və sərbəst aparıblar.

Şəlalənin həyat yoldaşı Arif Rüstəmov Rusiyada olduğundan hadisədən səhəri gün telefonla xəbər tutaraq evlərinə geri qayıdıb. Bir-birilərini sevərək ailə qurduqlarına deyən ər sevdiyi xanımın onu və üç azyaşlı övadını ataraq nə vaxtsa qaçacağını ağlına gətirmədiyini deyib.

Yoldaşının sözlərinə görə, Şəlalənin telefonu olmasa da, son bir neçə ayda gizlin şəkildə telefon işlədib. Bütün hadisələr də bundan sonra baş verib. Hadisə baş verən gündən bir neçə gün sonra Şəlalə anasına zəng edərək Bakıda sağ və salamat olduğunu bildirib. Bütün olanlara baxmayaraq, uşaqların xatirinə ailə gəlini qəbul edəcəyi sözünü verib. "Yetər ki, gəlsin, uşaqlarını və ailəni gözüyaşlı qoymasın", - deyə ailə üzvləri bildirir.

# Prezident "Aqrolizinq" ASC-yə 15 milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında sərəncam imzalayıb.**



APA-nın xəbərinə görə, sərəncama əsasən, əhalinin heyvandarlıq məhsulları ilə təminatının daha da yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması və bu sahəyə marağın gücləndirilməsi üçün süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 (yüz) manat həcmində subsidiya müəyyən edilib.

Nazirlər Kabinetinə süni mayalanma yolu ilə alınmış hər buzova görə subsidiyanın verilməsi qaydasını iki ay müddətində müəyyən etmək tapşırılıb.

Dövlət başçısı heyvandarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi haqqında da sərəncam imzalayıb. Sərəncamla ölkəyə iribuynuzlu damazlıq heyvanların idxalının və heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faiz güzəştlə lizinq yolu ilə satışının həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə 15,0 (on beş) milyon manat ayrılıb.



# Qardaş bacısının toy günü öldü

**Bacısının toy günü ölən qardaşın taleyi Cəlilabadda hamını kədərləndirib. "Qafqazinfo"ya daxil olan məlumata görə, rayonun İnili kəndindən işləmək məqsədilə Rusiya Fedarasiyasına gedən Mahmudov Adış Alış oğlunu yüksək gərginlikli elektrik cərəyanı vurub.**

Mərhumun yaxınlarının sözlərinə görə, hadisə iş zamanı baş verib. Belə ki, fərdi evlərdən birində çardaqda təmir işləri görən zaman Adış Mahmudovun əlindəki dəmir parçası yüksək gərginlikli elektrik xətlərinə toxunub və o, elə orada dünyasını dəyişib.

Hadisə baş verən gün isə Adış Mahmudovun bacısının Cəlilabadda toyu imiş. Ailə isə oğlunun faciəvi ölümündən bir neçə gün sonra xəbər tutub.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Bakıda erməni tərəfindən evi "yağmalanan" vətəndaş məhkəməni uddu


Aleksey Petroviç

**Bakıda erməni tərəfindən evi əlindən alınan vətəndaş məhkəməni udub. Musavat.com-a bu barədə paytaxt sakini Snequrenko Aleksey Petroviç özü məlumat verib. O bildirib ki, Apelyasiya Məhkəməsi onun xeyrinə qərar çıxarıb və evin bağışlanması barədə illər öncə verilmiş sənədi ləğv edib: "Təşəkkür edirəm məhkəməyə, təşəkkür edirəm hakimlərə, artıq ev mənimdir. Bu qoca yaşımda küçədə qalmışdım. Sağ olsunlar, haqqın yanında olub məni müdafiə etdilər".**

Qeyd edək ki, Snequrenko Aleksey Petroviç üç ildir ki, küçələrdədir. 65 yaşlı vətəndaşın Bakıda yaşadığı evini bir neçə il əvvəl erməni əlindən alıb. Onu isə üç il əvvəl döyüb küçəyə atıblar. O, mənzili işlədiyi yerdən 1978-ci ildə alıb. Xətai rayonu, Telnov küçəsində, 18 saylı evdə, mənzil 99 artıq onun sayılır. Evini isə erməni əsilli Makarov Yakov Alekseyeviç qanunsuzluqla onun əlindən alıb: "Onun əsl soyadı Simonyan idi. Bir gün məlum oldu ki, mən evi onlara bağışlamışam. Bu ilin yanvarında bağışlanmanın qanunsuz hesab olunması, ləğvi ilə bağlı məhkəməyə müraciət etmişəm. Xətai Rayon Məhkəməsi işi başdansovdu etdi, məhkəmə adına bir şey olmadı. Qapının dalında qaldım, bir dəfə içəri çağırmadılar. Sonunda da məhkəmə, hakim Namidar Misirzadə iddiamı təmin etmədi. Ancaq mənim haqlı olduğumu sübut edən nə qədər şahid var idi. Qarşılaşdığım nə qədər məmur ölkə vətəndaşını deyil, qanunsuzluq edən ermənini müdafiə etdi. Bu, qanunsuzluq idi, özbaşınalıq idi. Onların bunu etməkdə məqsədi nə idi? Prezidentlə görüşmək imkanım olsa, bunları ona deyərdim". Apelyasiya Məhkəməsində sədr İman Nağıyev, hakim Vüqar Həsənov olub.

❑ Röya RƏFİYEVA

# PKK terrorçularının hücumu nəticəsində 8 türk əsgəri şəhid olub

## Diyarbəkirdə avqustun 18-də baş vermiş toqquşmalarda həlak olan əsgərlərin sayı isə 4-ə çatıb

**Türkiyənin cənub-şərqindəki Siirt vilayəti ərazisində PKK terrorçuları Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularını daşıyan hərbi avtomobili partladıblar. APA-nın NTV-yə istinadən verdiyi məlumata görə, Siirt-Pərvari yolunun kənarına daha öncə basdırılmış bombanın partladılması nəticəsində yoldan keçən hərbi avtomobilin içərisindəki 8 əsgər şəhid olub. Hadisədən sonra əraziyə əlavə qüvvələr cəlb olunub və terrorçulara qarşı əməliyyat başlayıb.**

Diyarbəkir vilayətinin Licə rayonu ərazisində avqustun 18-də baş vermiş toqquşmalar nəticəsində həlak olan türk əsgərlərinin sayı isə 4-ə çatıb. Beləliklə, iki gün ərzində Türkiyə 12 əsgərini itirib. Əməliyyatlar davam edir.


Arif Hacılı

# Ədliyyə Nazirliyi Müsavatın qurultayının nəticələrini yenidən yoxlamaq istəyir

**Müsavat Partiyası başqanının müavini Elman Fəttah Ədliyyə Nazirliyinə çağırılıb. Bu barədə Müsavat Partiyasının başqanı Arif Hacılı sosial şəbəkədəki səhifəsində yazıb. Arif Hacılı qeyd edib: "Ədliyyə Nazirliyi Rifah təşkilatı rəhbərliyinin üzərindən 11 ay (!) keçdikdən sonra Müsavat Partiyasının VIII qurultayının nəticələrinin ləğv olunması ilə əlaqədar şikayətini araşdırır.**

Halbuki belə araşdırma qurultaydan sonra aparılıb. Ədliyyə Nazirliyi qurultayın nəticələrini təsdiq edib.

Belə görünür ki, hakimiyyət seçkiöncəsi siyasi partiyalara qarşı təzyiqin yeni metodundan istifadəyə qərar verib".

# Leyla Yunus tibb məntəqəsinə köçürüldü

**Hazırda həbsdə olan Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus saxlandığı Bakı İstintaq Təcridxanasının tibb məntəqəsinə köçürülüb.**

Bu barədə APA-ya L.Yunusun vəkili Elçin Qəmbərov məlumat verib. Vəkil Leyla Yunusla görüşdüyünü də qeyd edib. Onun sözlərinə görə, L. Yunus tibb məntəqəsinə ötən həftə köçürülüb.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə L. Yunus 8 il yarım, A. Yunus isə 7 il müddətinə azadlıqdan məhrum edilib.

Hər iki şəxsin barəsində olan Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi üzrə cinayət işi ayrı icraata verilib.

# Şəmkirdə bir ailənin iki uşağını "tok" vurdu

**Şəmkir rayonunun Abbaslı kəndində bədbəxt hadisə baş verib. "Report" xəbər verir ki, kənd sakini Şükür Qasımovun mənzilində onun iki azyaşlı nəvəsini elektrik cərəyanı vurub. Hər iki uşaq elə hadisə yerindəcə dünyasını dəyişib. Hazırda rayonun polis və prokurorluq orqanlarının əməkdaşları hadisə yerində araşdırma aparırlar.**

# Türk dövlətlərinin başçıları toplanır

**Türkdilli ölkələrin dövlət başçılarının 5-ci toplantısı 11 sentyabr tarixində Astanada keçiriləcək. APA-nın məlumatına görə, bu barədə qurumun rəsmi saytında məlumat yer alıb. Tədbirdə Azərbaycan, Qırğızıstan, Qazaxıstan və Türkiyə dövlət başçılarının iştirakı gözlənilir. Ondan bir gün əvvəl isə Astanada Türkdilli Ölkələrin Xarici İşlər Nazirləri Şurasının iclası keçiriləcək.**

**Jurnalist Rasim Əliyevin ölümünə görə həbs olunan "Qəbələ" futbol klubunun sabiq kapitanı Cavid Hüseynovun ailə üzvləri ilk dəfə olaraq mətbuata danışıblar. Futbolçunun ailə üzvləri "Yeni Müsavat"a açıqlamalarında bu günədək baş verən hadisələrə, Cavid Hüseynovun həbsinə münasibət bildiriblər.**

# Cavid Hüseynovun ailəsi "Yeni Müsavat"a danışdı

## Futbolçunun anası: "Oğlumun günahı yoxdur..."





C.Hüseynovun ailə üzvləri ilə söhbətimiz futbolçunun yaşadığı Mehdiabad qəsəbəsindəki evlərində baş tutdu. Həmsöhbətlərimiz - Cavidin anası Xalidə Hacıyeva, qardaşı Şərafəddin Hüseynov, dayısı Rantiq Hacıyev, futbolçunun atasının silah yoldaşı, müharibə veteranı Vaqif Əlisoy və futbolçunun vəkili Adəm Məmmədov oldu.

C.Hüseynovun bir bacısı və bir qardaşı var. Almaniyanın Köln Universitetində təhsil alan Şərafəddin Hüseynov Cavidin böyük qardaşıdır. Ş.Hüseynov qardaşının həbs xəbərini aldıqdan sonra Azərbaycana gəlib.

**Ş.Hüseynov ailələri və Cavid haqda mətbuatda və cəmiyyətdə formalaşdırılan mənfi rəydən narahat olduqlarını dilə gətirdi:** "Mən hadisədən mətbuatdan xəbər tutdum. Sonra anamla əlaqə saxladım. Cavid haqda ilk olaraq yanlış fikir sosial şəbəkələrdə formalaşdırıldı. Jurnalistin ölümünə Cavidin səbəb olduğu, hətta o davada qardaşımın iştirak etdiyi də yazılmışdı. Amma sonradan məlum oldu ki, Cavid orada olmayıb. Sonra Cavidi sifarişçi kimi təqdim etdilər. Biz yüz faiz bilirik ki, Cavid günahsızdır. Əgər mümkündürsə, telefon danışıqları da ictimailəşdirilsin və hər şey aydın olsun. Biz razıyıq ki, Cavidin günahı varsa, layiqincə cəzalandırılsın. Elşənin (jurnalisti döyən bibisi oğlu-red.) bir hərəkətinə görə Cavidi ittiham edirlər, günahlandırırlar".

**Ş.Hüseynov baş verənlərin yeganə səbəbkarı kimi Elşən İsmayılovu görür. O deyir ki, bu dava Elşənlə Rasim arasında baş verib:** "Rasimin facebookda yazdığı statusun şərh bölməsində Elşən onu təhqir edib. Bundan sonra ikisi arasında mübahisə yaranıb. Elşən Rasimi təhqir edib. Sonra telefonda danışıblar. Nə olubsa, ikisi arasında olub. Cavid davadan sonradan xəbər tutub. Cavid Rasimin yazdığı statusa reaksiya verəcək insan deyil. Sadəcə, Elşən mübahisə etdikdən sonra bunu Cavidə deyib. Cavid məsələni sakit yolla həll etmək məqsədilə Rasimə zəng edib".

**Rasimin dayısı:** "Hamımız ali təhsilliyik. Bizim övladlarımız da ali təhsillidir. Cavidin atası şəhid olduqdan sonra onların ailəsi biz qardaşların və xalalarının himayəsində olub. Onları öz ailəmizdən, övladlarımızdan ayırmamışıq. Bu ailədən bir insan öldürəcək övlad çıxa bilməz. Çox xahiş edirik ki, mətbuatda araşdırılmamış məlumatlar yer almasın. Cavid atası kimi vətənpərvərdir, ürəyi torpaq, bayraq sevgisi ilə doludur. Meydanda 9 milyonla bayraq sevgisini bölüşən bir insan necə cinayətkar ola bilər? Bu məsələdə Cavidin günahı yoxdur".

**Cavidin atası Şakir Hüseynovun keçdiyi döyüş yolu haqda onun silahdaşı Vaqif Əlisoy məlumat verdi:** "Şakir 1955-ci ildə Cəbrayılın Qaracalı kəndində anadan olub. Milli azadlıq hərəkatı başlayanda Şakir ön sıralarda idi. Milli Ordu yaradılanda Şakir də daxil olmaqla, 35 nəfərdən ibarət özünümüdafiə batalyonu yaradıldı. Həmin batalyonun komandirinin müavini Şakir təyin olundu. Batalyon sonradan hərbi hissəyə çevriləndə komandir Şakir oldu. O zaman Şakir Cəbrayılda yaradılan sülh batalyonunun komandiri oldu. Ən ağır döyüşlərdə Şakir öndə olub. Vətənini, millətini sevən Şakir bu sevgini ailəsinə də göstərirdi. Şakir Ağdamın Güllücə kəndində iki dəfə yaralandıqdan sonra şəhid oldu. O, "İgidliyə görə" medalı ilə təltif olundu. Silahdaşım yaralansa belə meydanı tərk etmədi. Bu ailənin nəslindən 32 nəfər şəhid var. Belə ailədən nə cinayətkar çıxar, nə də cinayəti sifariş edən adam. Cavid günahkardırsa, cəzasını alsın. İstintaq cənab prezidentin nəzarətində davam edir. Hər kəs qərarı gözləməlidir".

**Cavidin məhkəməsində ailə üzvlərindən heç kim iştirak etməyib. Məhkəmə çıxışında isə Cavidi yalnız V.Əlisoy görüb:** "Cavidi gördüm. Mənə dedi ki, Vaqif dayı, bir Allah şahiddir ki, mənim iynənin ucu qədər də olsa, günahım yoxdur. Mən də buna inanıram".

**Söhbətimizə Cavidin anası ilə davam edirik. X.Hacıyeva jurnalistin döyüldüyü günü- avqustun 8-ni belə xatırlayır:** "Cavidin 3 qurbanı var idi. Həmin gün dedi ki, birini kəsək. Həmin gün qurban kəsdik. Saat 5-də məşqi var idi. Məşqdən sonra da ailə üzvlərimizlə şəhərdə olmuşuq. Evə qayıdanda isə gec idi. Həmin gün baş verənlərdən xəbərimiz olmayıb. Cavidin zərrə qədər də olsun günahı yoxdur".

**X.Hacıyeva Cavid Hüseynovla Elşən İsmayılov *(Jurnalisti döyən şəxs, Cavid Hüseynovun bibisi oğlu red.)* arasında yaxın münasibətlərin olmadığının dedi:** "Elşəni 23 il ərzində 2 dəfə görmüşəm. Onlarla qohumuq, amma ailələr arasında çox gediş-gəliş olmayıb. Bibi-dayı oğludular, buna baxmayaraq, aralarında yaş fərqi çoxdur".

**X.Hacıyeva oğlunun E.İsmayılovun səhvinə görə cəzalandırılmasını istəmədiyini söyləyib:** "Bunu oğlum olduğu üçün, onu müdafiə etməyə görə demirəm. Cavid bir qarışqanı incidəcək insan deyil. Onu tanıyan tanıyır".

## "Elşəni 23 il ərzində 2 dəfə görmüşəm"

**Cavidin anası hadisədən Rasim Əliyevin ölümündən sonra xəbər tutduğunu bildirdi:** "Xəbərimiz yox idi. Mənə böyük oğlum dedi. Günəşli qəsəbəsində olan evimizə polis əməkdaşları gedib. Biz orda qalmırdıq. Qonşular bizə zəng etdi ki, sizi polis axtarır. Polislər Cavidi Qəbələyə gedəndə Şamaxı postunda saxlayıblar. Oradan da Səbayel Rayon Polis İdarəsinin 8-ci polis bölməsinə aparıblar. İzahat alıb buraxıblar. Cavid evə gələndə dedi ki, izahat verib. Jurnalisti döyənlərlə üzləşdirilib. Elşəndən başqa heç birini tanımadığı, onların da onu tanımadığını dedi. Elə bir halda idi ki, əlavə nəsə danışmaq istəmirdi. Cavidə səhər 8-də yenidən bölməyə gəlməsini demişdilər".

**C.Hüseynovun Rasim Əliyevlə danışdığından ailə üzvlərinin hamısı xəbərsiz olub. Cavid yalnız Elşən İsmayılovla danışanda dayısı Rantiq Hacıyev yanında olub.**

**Dayısı həmin danışığı belə xatırlayır:** "Cavid Elşənə dedi ki, sən niyə mənim işimə qarışırsan, mən Rasimlə danışdım, məsələni həll etdik. Elşən Cavidə dedi ki, Rasim onu söyüb, bu da onu söyüb. Bir-birilərini təhqir ediblər. Elşən dedi ki, bu söhbətə görə gedib Rasimlə görüşəcək. Cavid dedi ki, getmə. Əgər hansısa artıq hərəkət etsən, polisə cavab verəcəksən. Bundan sonra danışıq bitdi. Bu söhbətlərin hamısı istintaqda var. Bundan sonra olanlardan biz də, Cavid də xəbərsizik".

**Vəkili Adəm Məmmədov jurnalistin ölümünün siyasiləşdirildiyini və bunun da istintaqa təzyiq olduğunu dedi. Vəkil həmçinin jurnalistin döyülməsi ilə bağlı yeni məlumatlar verdi.**

**Vəkilin sözlərinə görə, jurnalistlə görüş zamanı 5 nəfərdən 2-si onu döyüb. Bunlardan biri Elşən İsmayılovdur. Digər 3 nəfər müdaxilə etməyib. Görüntüləri izlədiyini deyən vəkil hadisədə Cavidin heç bir günahının olmadığını bildirdi:** "Bu hadisə isə onun jurnalist kimi fəaliyyəti ilə əlaqəli deyil. Avropa Şurasının baş katibi Turbyörn Yaqland Rasim Əliyevi RATİ-nin rəhbəri kimi təqdim edib. Bu da məsələni siyasiləşdirib. Bununla da istintaqın gedişinə təzyiq göstərirlər. Nəticədə müvəkkilimin vəziyyəti çətinləşir".

**A.Məmmədov təzyiqlərin dayandırılmasını və istintaqın ədalətli şəkildə başa çatmasını tələb etdiklərini qeyd etdi:** "Hüquqlarını müdafiə etdiyim şəxsin qohumunun və ya həbs edilən digər şəxslərin əvvəlcədən hansı cinayəti törədəcəklərindən xəbərinin olması mümkün deyil. Əgər hesab etsək ki, Cavid həmin şəxslərin Rasimin yanına getməsindən, arasında mübahisənin olmasından xəbəri olub, bu zaman da Cavidin hərəkətində cinayət tərkibi yoxdur. Çünki Cavid bilməzdi ki, onlar gedib nə edəcəklər. Buna görə də Cavidə qarşı 307-ci maddə ilə ittiham irəli sürülməsi qanunsuzdur. Bunu tək mən yox, digər hüquqşünaslar da deyir. Cavid haqda həbs-qətimkan tədbirinin seçilməsi üçün əsas yoxdur".

❑ **İlkin MURADOV**

# Cavid Hüseynovla bağlı prezidentə müraciət qalmaqal yaratdı



**Aqil Abbas:** "Müraciəti çap etdirsələr, görərlər ki, orda mənim imzam yoxdur"



**Ruslan Bəşirli:** "Xahiş edirəm, adımı çıxarsınlar"



**Aqil Camal:** "Müraciətin mətnini istədim..."

**Jurnalist Rasim Əliyevin ölümünə görə həbs edilən "Qəbələ" futbol klubunun kapitanı Cavid Hüseynovun zaminliyə buraxılması ilə bağlı bir qrup media təmsilçisinin prezident İlham Əliyevə və baş prokuror Zakir Qaralova müraciət etməsi barədə xəbər vermişdik.**

Maraqlıdır ki, müraciət mətbuata işıqlanandan dərhal sonra siyahıda adları olan bəzi jurnalistlər belə bir müraciətdən xəbərsiz olduqlarını deyiblər. Məsələn, avropa.info xəbər portalının direktoru Ruslan Bəşirli müraciətdə adının keçməsinə belə reaksiya verib: "Futbolçu Cavid Hüseynovla bağlı edilən müraciətdə anlaşılmazlıq nəticəsində mənim də adım gedib. Bir çox saytlar mənim adımı artıq o siyahıdan çıxarıblar. Qalanlardan da xahiş edirəm adımı çıxarsınlar. Yenə də deyirəm, bu bir anlaşılmazlıq olub".

**"Türküstan" qəzetinin baş redaktoru Aqil Camal da eyni fikirləri bölüşüb:** "Bəzi saytlarda futbolçu Cavid Hüseynovun zaminə buraxılması ilə bağlı bir qrup media təmsilçisinin müraciətində mənim də adım qeyd olunub. Bildirmək istəyirəm ki, müraciətin təşəbbüsçüləri mənimlə əlaqə saxlayıblar. Müraciətin mətnini istəmişəm. Belə bir xəbərin yayıldığı haqda məlumat aldım. Dəqiqləşdirəndə, bildirdilər ki, müraciəti çatdırmaq imkanı olmayıb. Mənim Cavidlə bağlı fikirlərim birmənalıdır və bu haqda yazım da var".

**Dünya İnformasiya Agentliyinin (dia.az) baş redaktoru Məhəmməd Ərsoy isə müraciətdən xəbərdar olduğunu deyib:**

"Təbii ki, biz də həmkarımızın başına gələn faciədən üzülürük... Amma bu işdə Cavid Hüseynova qarşı ictimaiyyətin köklənməsini doğru hesab etmirik. Hər kəs yaxşı bilir ki, Cavid Hüseynov bir şəhid övladı olaraq vətəninə, millətinə bağlı adam olub və onun öz millətindən olan kiməsə qarşı hansısa formada - ölümünə belə düşmən ola biləcəyini güman etmək doğru deyil. Bir facia baş verib. Və buna görə günahkarlar cavab verəcək. Cavid Hüseynov isə bu faciədə zərərçəkən tərəflərdən biridir... Allah şeytana lənət eləsin... "

Xalqxeber.com saytının rəhbəri Peyman Sadıqov deyib ki, söhbətin jurnalist, 7gun.az saytının baş redaktoru Cavid Şirəliyevdən getdiyini düşünüb və buna görə müraciətin imzalanmasına razı olub.

**Deputat Aqil Abbas isə avqustun 18-də verdiyi açıqlamada bu müraciəti dəstəklədiyini və təsisçisi olduğu media orqanının adından qol çəkməyə razı olduğunu bildirib:** "Mən Cavid Hüseynovu həbsdə görmək istəmirəm. O, xalqa lazımdır. Razıyam, əgər günahı sübut olunsa, 10 il iş versinlər. Hələ istintaq gedir. Onun da Rasim Əliyev kimi ev-eşiyi yanıb, dağılıb. Vaxtilə erməni bir tərəfdən yandırıb, indi də bir tərəfdən yanır".

**A.Abbas avqustun 19-da təsisçisi olduğu adalet.az saytına açıqlamasında isə tamam fərqli mövqe sərgiləyib. Qeyd edib ki, belə bir müraciətə imza atmayıb:** "Mənə futbolçu Cavid Hüseynovla bağlı müraciət olundu. Mən də onlara bildirdim ki, müraciətinizi aparın "Ədalət" qəzetinə təqdim edin. Məsləhət bilsələr çap edərlər".

**A.Abbas deyir ki, hazırda məsələ hüquq-mühafizə orqanları tərəfindən araşdırılır. Belə bir məqamda bu kimi müraciətlərə imza atmaq hüquqi cəhətdən düzgün deyil:** "Millət vəkili kimi çox gözəl bilirəm ki, istintaqı aparılan hər hansı bir işlə bağlı olan müraciətə imza atmaq bu işə müdaxilə etmək deməkdir. Bizdə isə istintaq və məhkəmə sistemi tam müstəqildir. Onların fəaliyyətinə təsir göstərməyə heç kimin haqqı çatmaz. Həmin müraciəti çap etdirsələr, görərlər ki, orda mənim imzam yoxdur".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 182 (6210) 20 avqust 2015

**AXCP sədrinin keçmiş müavini Razi Nurullayev və narazı cəbhəçilər avqustun 19-da mətbuat konfransı keçirərək, yeni hərəkata başladıqlarını elan ediblər. R.Nurullayev çıxışında bildirib ki, ölkədə ciddi bir müxalifət problemi var: "Hazırkı müxalifətin formatı heç də nəticəyə gətirib çıxara bilməz. Burada sanki hakimiyyət və müxalifət bir-birinə pas ötürərək iqtidarı indiki komandada saxlamağa meyllənirlər. Neçə illər bu format dəyişməyib.**




# AXCP Əli Kərimlidən alınır

## Narazı cəbhəçilərdən revanş; Azərbaycan siyasətində zəlzələ kimi gəlişmə; Razi Nurullayev sədr olur: "Möhürü və sədrliyi Əli Kərimlidən alacağıq"





Ona görə qərara gəldik ki, yeni bir partiyaya ehtiyac yoxdur. Biz AXCP adına iddia edirik və hesab edirik ki, orada olan bütün cəbhəçiləri də öz ətrafımıza gətirə biləcəyik. Artıq bununla bağlı danışıqlar olub. Əli Kərimli ya sədrlikdən gedəcək, sıravi üzv olaraq qalacaq, ya biz təmsilçilik uğrunda mübarizə aparacağıq. Təmsilçiliyin bizə verilməsi üçün Ədliyyə Nazirliyinə müraciət edəcəyik. Ondan bir möhürü almaq lazım gələcək. Bu, bütün cəbhəçilərin fikridir".

"Əli Kərimli hakimiyyətlə bir yerdə Azərbaycan demokratiyasını boğub" - deyə, Razi Nurullayev bildirib.

**O vurğulayıb ki, Ə.Kərimli AXCP-də dözülməz diktatura rejimi yaradıb:** "Faktiki olaraq hakimiyyətin sifarişlərini yerinə yetirən Əli Kərimli partiyada dözülməz, diktator rejimi yaradıb. Biz cəbhəçilər çağırış edirik ki, Əli Kərimli və onun tərəfdarları partiyadan getsin. Və partiya yenidən demokratik düşüncəli insanlarla qurulsun. Hakimiyyət Əli Kərimlini müdafiə etsə də biz əlimizdən gələn hər şeyi edəcəyik ki, o, partiyadan getsin. Azərbaycanda demokratiyanın boğulmasında da hakimiyyətlə bir yerdə Əli Kərimli də təqsirkardır. Və biz bu vəziyyəti dəyişməyə çalışacağıq".

**"Əli Kərimliyə qarşı mübarizədə "Azadlıq" qəzetini də öz tərəfimizə çəkməyə çalışacağıq".**

**Bu fikirləri azvision.az-a açıqlamasında Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Etimad Qurultayının Təşkilat Komitəsinin rəhbəri Razi Nurullayev deyib. O bildirib ki, bununla bağlı "Azadlıq" qəzetinə müraciət ünvanlayacaqlar:** "Biz istəyirik ki, "Azadlıq" qəzeti də ayılsın. Qoy onlar da bilsinlər ki, Əli Kərimliyə yox, xalqa xidmət etmək lazımdır. Ona görə, bu qəzet müstəqil olmalıdır. Bu qəzet Əli Kərimlinin əsarətindən çıxsa, yaxşı olar. Ancaq qərar onlarındır".

**R.Nurullayev deyib ki, yaxın vaxtlarda yeni AXCP-nin rəsmi qəzeti nəşrə başlayacaq:** "Biz yaxın günlərdə "Cümhuriyyət" qəzetini buraxmağa başlayacağıq. Bu qəzet bizim rəsmi orqanımız olacaq. Qəzetin baş redaktoru Rəfail Becanov olacaq. Qeyd edim ki, qəzetin internet səhifəsi də olacaq. Eyni zamanda AXCP-nin yeni formatda internet səhifəsini də yaradacağıq".

**Keçmiş cəbhəçi Ehtiram Mehdiyev isə narazı cəbhəçilərin bəyanatını səsləndirib.**

**Bəyanatda deyilir:** "Biz Azərbaycan Xalq Cəbhəsi Partiyasının üzvləri Əli Kərimlinin rəhbərlik etdiyi AXCP-də daxili demokratiyanın boğulması, partiyanın bir şəxsin iradəsinə tabe edilməsi, əks və alternativ fikrin rədd edilməsi, üzvlərin təzyiqə məruz qalması, partiya sıralarından ləkələnərək uzaqlaşdırılmasına etiraz əlaməti olaraq bir araya gəlir və uzun illər uğrunda mübarizə apardığımız əsl AXCP-ni bərpa edirik. Bizi zor gücünə partiyadan uzaqlaşdırmaq və bir şəxsin əsassız ambisiyalarının qurbanı etmək olmaz. Çünki biz bu partiya və bu amal üçün bütün şüurlu həyatımızı həsr etmiş və cəbhəçi kimi ən ağır məhrumiyyətlərə düçar olmuşuq. Vətəni, milləti sevmək kimi şərəfli bir həyat yolu keçən cəbhəçiləri indi kimsə öz şəxsi maraqlarını həyata keçirmək üçün müxtəlif yollarla partiyadan xaric edir. Həmin şəxslər haqsız və alçaqcasına ləkələnir. Onların təmənnasız və fədakar mübarizə yollarına kölgə salınır. Artıq bütün bu rəzalətə dözmək və bunları sadəcə müşahidə etmək mümkün deyildir. Buna imkan vermək də onların dəyirmanına su tökməkdir. Son çıxış yolumuz hakimiyyətə sərf edən oyunlarla gündəmdə qalan və bir nəfərə qulluq edən AXCP-ni əsl və səmimi sahiblərinə qaytarmaqdır. Güclü müxalifət olmadan polis rejimi yaradan və repressiyalar yağdıran iqtidarı hakimiyyətdən uzaqlaşdırmaq mümkün deyil".

**Bəyanat müəllifləri qeyd edirlər ki, məqsədləri qovulanları partiyaya qaytarmaqdır:** "Bizim məqsədimiz Azərbaycan Xalq Cəbhəsi Partiyasını sağlamlaşdırmaq və orada daxili demokratiyanı bərpa etmək, indiyə kimi oradan qanunsuz və əsassız qovulanların və ləkələnənlərin hüquqlarını bərpa edib partiyaya qaytarmaqdır. Biz heç də ikinci AXCP yaratmırıq. Əsl cəbhəçilərin bu AXCP-də toplanacağına əminik. Hər kəsi - hüququ pozulanları, qanunsuz və mənəviyyatsızcasına ləkələnənləri, Elçibəy və Rəsulzadə ideyalarının daşıyıcılarını sıralarımıza dəvət edirik. Biz əsl AXCP-ni qaytaracağıq. Biz birbaşa olaraq Əli Kərimlinin diktəsi və istəyi ilə qanunsuz olaraq partiyadan uzaqlaşdırılmışıq. Hüquqlarımızı bərpa edib partiyaya dönəcəyik. O zaman artıq iki AXCP-yə ehtiyac qalmayacaq. Bu zaman Əbülfəz Elçibəyin də ruhu şad olacaq. Biz partiyanı parçalamaq istəmədik. Biz adımızı dəyişdirib onlarla partiyanın sıralarına qoşulmaq istəmədik. AXCP var, sadəcə, o qəsb edilib, idarəetmədən narazı olanlar və etiraz edənlər zorakı şəkildə oradan uzaqlaşdırılır. Buna son qoyulmalıdır və biz buna sizlərlə birlikdə son qoyacağıq. Partiya könüllü şəkildə toplumun birləşdiyi bir qurumdur. Partiya kiminsə inhisarında olan məhdud məsuliyyətli cəmiyyət deyil. Bundan sonra daha heç kim partiyanı özünün şəxsi firması kimi idarə edə bilməz. İstədiyi adamı partiyadan qovmaqda sərbəst ola bilməz. Bu tip adamların partiyanı uçuruma da aparmağa nə hüquqi, nə də mənəvi haqqı çatır. AXCP-nin bütövlüyünü qorumaq üçün, xalqımızın rifahı üçün yaranmış vəziyyətdən iqtidarın istifadə etməsinə imkan verməyək. Bu gün hakimiyyət maraqlıdır ki, müxalifət parçalansın, dağılsın və idarə olunan hala düşsün. AXCP-nin rəhbərliyində Əli Kərimlinin və əlaltılarının olması bu antimilli hakimiyyətin siyasətinə və marağına tam cavab verir. İllərimiz itir, gənclərimiz küçələrdə qocalır və həbsxanalarda həyatları məhv olur, lakin Əli Kərimlinin övladları xaricdə bahalı universitetlərdə təhsil alır və dəbdəbəli həyat yaşayırlar. Polis dəyənəyi altında mübarizəyə atılan gəncliyin isə maraqları şəxsi maraqlara görə qurban verilir və satılır. Əziyyətlərimiz heç, ümidlərimiz puç olur. Nəticədə xalqın etimadını itiririk. Əli Kərimli və onun bir qrup əlaltısı isə hakimiyyətlə min bir oyuna gedərək şəxsi maraqlarını təmin edir və yalançı müxalifət obrazı yaradır. Bu azmış kimi, Əli Kərimli bəzi xarici qüvvələrin əlində oyuncağa çevrilərək milli və partiya maraqlarını da vicdansızcasına satmaqla məşğuldur. Bu kimi şəxslər uzun müddət səmimi cəbhəçiləri aldatmış və bununla da xalqa və ümumi dəyərlərimizə xəyanət etmişlər. Bizim hakimiyyətin bizdən istifadə etməməsi və sıralarımıza nifaq salmaması üçün elan etdiyimiz Azərbaycan Xalq Cəbhəsi Partiyası qeydiyyat üçün Ədliyyə Nazirliyinə müraciət etməyəcək. Çünki biz düşünürük ki, bu, ümummüxalifətin mənafeyinə zidd hərəkət olar. Biz çıxış yolunu da irəli sürürük. Birincisi, qoy bütün cəbhəçilər aparılan siyasətə etiraz olaraq burada elan etdiyimiz Azərbaycan Xalq Cəbhəsi Partiyasında birləşsinlər. Onun sıralarında 20 ildən çox xalqın qanını soran korrupsioner və polis rejimi quran hakimiyyətlə mübarizələrini prinsipial və ağıllı üsullarla davam etdirsinlər. Biz indiyə qədər əzilmiş və haqqı pozulmuş vətəndaşların haqlarının bərpa edilməsi üçün qanunun imkan verdiyi ən sərt və barışmaz yolla mübarizə aparacaq və AXCP-ni iqtidar partiyası edəcəyik. Ləyaqətli və xalqa xidmət edən hakimiyyətin qurulması cəbhəçilərin və Azərbaycan xalqının təbii haqqıdır. Hesab edirik ki, bütün cəbhəçilərin iştirakı ilə etimad qurultayı çağırılmalı, əsl AXCP-nin qayəsi və mahiyyəti özünə qaytarılmalı, partiya yenidən təşkil olunaraq özünə yeni rəhbərlik seçməlidir. Bununla bərabər, AXCP-nin nizamnaməsi dəyişdirilməlidir. Sədrin sərhədsiz səlahiyyətləri məhdudlaşdırılmalı və seçkili orqanların səlahiyyətləri artırılmalıdır. Əlavə olaraq, sədrlik müddəti iki dəfəyə məhdudlaşdırılmalıdır. Bu demokratiyanın tələbidir. Biz inanırıq ki, cəbhəçilərin birliyi və səyi ilə AXCP-ni əsl sahiblərinə qaytaracaq, müxalifətin birliyi üçün çalışacaq və sizlərin uzun müddət yorulmadan mübarizə apardığınız idealların və arzuların həyata keçməsinə nail olacağıq".

**Rafiq Daşdəmirli, Səbuhi Əliyev və digərləri də partiyadaxili intriqalardan danışıblar. Onlar indiki sədr Əli Kərimlinin legitimliyini əlindən almaqda israrlı olduqlarını vurğulayıblar. Razi Nurullayev isə qeyd edib ki, zorla partiyadan uzaqlaşdırılanlar və uzaqlaşanların mövqeyi loyal olmayacaq:** "Mövqeyimiz radikallıqdan fərqlənməyəcək. Biz bilirik ki, Azərbaycanda hakimiyyət qəsb olunub".

**Tədbirdə keçmiş cəbhəçilərdən Rafiq Daşdəmirli, Səbuhi Əliyev, Ehtiram Mehdiyev, Rəfael Becanov, Vəli Xramçaylı, Cavid Musazadə, Ələddin Kəsəmənli, Teymur Kərim, Fəxri Abduləzimov və başqaları iştirak ediblər.**



**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# Zakir Həsənov orduda ciddi islahatlara start verdi

## Xeyli zabit cəzalandırıldı; **Müdafiə Nazirliyi:** "Xəbərdarlıqdan nəticə çıxarmayan şəxslər barədə müvafiq qərarlar qəbul edilib..."

**Son günlər Müdafiə Nazirliyi sistemində ciddi kadr dəyişiklikləri həyata keçirilir. Yayılan məlumatlar onu göstərir ki, nazirlikdə tutduğu postdan sui-istifadə edərək qanun pozuntularına yol verən yüksək rütbəli zabitlərin işdən azad edilməsi prosesi davam edir.**

Üstəlik, neqativ hallara yol verən şəxslər içərisində hətta həbs edilənlərin də olduğu artıq faktdır. Belə bir ərəfədə aznews.az işdən çıxarılan daha bir qrup yüksək vəzifəli zabitlərin siyahısını əldə edib.

Şok effekti yaradacaq həmin siyahını təqdim edirik:

**1.** Hərbi hava hücumlarından müdafiə qoşunlarının rəisi, polkovnik-leytenant Tofiq Abbasov;

**2.** Silahlı Qüvvələrin Avtomobil Xidməti rəisi, polkovnik Kamran Məlikov;

**3.** Silahlı Qüvvələrin Yanacaq Xidməti rəisi, polkovnik Hüseyn Vəliyev;

**4.** Silahlı Qüvvələrin Zirehli Tank Xidməti rəisi, polkovnik Elxan Hüseynov;

**5.** Silahlı Qüvvələrin Ərzaq Xidməti rəisi, polkovnik Malik Qurbanov;

**6.** Silahlı Qüvvələrin Raket- artileriya silahları rəisi-Maddi-texniki təminat baş idarəsinin rəis müavini, polkovnik Yaqub Əhədov.

Bunlardan başqa, Silahlı Qüvvələrin Baş İnspeksiyası İdarəsinin 25 nəfərə yaxın zabit heyətinin hamısı vəzifədən azad edilib. Onların əksəriyyətinə cinayət işi açılıb. 5 nəfər isə həbs edilib. İşdən azad edilənlər arasında Milli Qəhrəman, general-mayor Fəxrəddin Cəbrayılov da var *(5 nəfər yüksək rütbəli zabitlərin həbsi barədə bir neçə gün əvvəl məlumat yayılmışdı).*

Maraqlısı odur ki, yuxarıda adıçəkilən şəxslərin hamısı həmin vəzifələrə Zakir Həsənov nazir təyin ediləndən sonra gətirilib. Qeyd edək ki, bundan öncə nazirlikdən daha bir nəfərin qanun pozuntusuna görə işdən azad edilməsi ilə bağlı məlumat yayılmışdı. Bildirilmişdi ki, bir neçə gün əvvəl Z.Həsənovun işdən azad edilən müavini Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi, general-mayor Qorxmaz Qarayevin xalası oğlu polkovnik-leytenant Qəhrəman Ağayev dünən nazirin əmri ilə Tikinti İşləri üzrə İdarənin rəisi vəzifəsindən azad edilib. Onun vəzifədən çıxarılmasına səbəb yol verdiyi qanun pozuntuları olub.

**Müdafiə Nazirliyindəki kadr dəyişiklikləri ilə bağlı fikirlərini pia.az-la bölüşən hərbi ekspert Üzeyir Cəfərovun fikrincə, generalların vəzifədən çıxarılmasına normal yanaşmaq lazımdır:** "Öncəliklə bunu qeyd edim ki, generalları Zakir Həsənov təyin etmir. Zakir Həsənovun təqdimatı əsasında ölkə başçıları Baş Komandan kimi onların vəzifəyə təyin olunması ilə bağlı qərar qəbul edirlər. Hazırda mətbuatda generalların təyin olunması, vəzifədən kənarlaşdırılması məsələsi ilə bağlı ajiotaj yayılır. Əslində isə buna çox normal yanaşmaq lazımdır. Ona görə ki, zabit, gizir, general və ya admiralların vəzifəyə təyin olunması, yerdəyişmələr edilməsi normal haldır. Əgər həmin zabitin əməllərində hansısa cinayət tərkibi və ya nöqsan varsa, bu başqa məsələdir. Çünki vəzifələrindən çıxarılan şəxslərin bir hissəsi barədə məlumat var. Məsələn, Cəmşid Naxçıvanski adına Hərbi Litseyin rəisi, general-mayor Mirzə Almasov öz vəzifəsinə Zakir Həsənovdan da əvvəl təyin olunmuşdu. Fəxrəddin Cəbrayılov isə Zakir Həsənovun vaxtında təyin olunmuşdu. Sadəcə, bəzilərinin yerdəyişməsi həyata keçirilir, bəziləri vəzifəsindən çıxarılır. Lakin burda hansısa faciənin baş verdiyini deməzdim. İnsanlar vəzifə borclarına nizamla yanaşmırlarsa, nöqsan olubsa, bu yuxarı komandalığın səlahiyyətidir ki, onlarla bağlı müvafiq addım atsın. Onların vəzifələrinin öhdəsindən gəlib-gəlməməsi ilə bağlı Müdafiə Nazirliyi öz mövqeyini bildirsə, daha yaxşı olar".



Zakir Həsənov

**Müdafiə Nazirliyi isə iki günlük sükutdan sonra məsələyə reaksiya verib. Nazirliyin mətbuat xidmətindən "Yeni Müsavat"ın kadr dəyişiklikləri ilə bağlı sorğusuna cavab olaraq bunları bildirdilər:** "Müdafiə Nazirliyində aparılan yerdəyişmələrlə bağlı məsələdə kriminal axtarmağa ehtiyac yoxdur. Bu cür dəyişikliklər təbii qəbul edilməlidir. 2014-cü ilin yekunları və ondan sonrakı dövrdə müxtəlif sahələr üzrə Silahlı Qüvvələrdə aparılan yoxlamaların nəticələrindən sonra nöqsanlara yol verən hərbi qulluqçulara bir neçə dəfə xəbərdar edilib. Nazirlik rəhbərliyinin cəbhə boyu zonadakı apardığı son yoxlamaların nəticələrinə əsasən əvvəllər edilən xəbərdarlıqdan nəticə çıxarmayan şəxslər barədə müvafiq qərarlar qəbul edilib, nöqsanlara yol verənlərin bir qismi aşağı vəzifəyə keçirilib, digərləri isə kənarlaşdırılıb. Eyni zamanda nailiyyətləri olan şəxslər vəzifədə irəli çəkilib. Bu kimi tədbirlər Silahlı Qüvvələrimizdə mütəmadi olaraq həyata keçiriləcək. Media nümayəndələrinə bu məsələdə qeyri-adilik axtarmamağı, kimin hansı rütbədə, hansı vəzifəyə təyin olunması və kənarlaşdırılması barədə məlumatları yaymamağı bir daha tövsiyə edirik".

❑ **Cavid TURAN**

# Kərəm Həsənovla başçı müavini davasının təfərrüatları

## Başçının kabinetində yumruqlaşma olubmuş, Malik Həsənovun üzə çıxmamasının səbəbi bilindi

**Xəbər verdiyimiz kimi, Cəlilabadın icra başçısının birinci müavini Asif Əzizov işdən çıxarılıb. RİH başçısının birinci müavininin işdən çıxarılması barədə xəbərlərə rəsmi şərh verilməyib. Asif Əzizovla icra başçısı Əziz Əzizov arasında münasibətlər son vaxtlar gərgin olub. Gərginləşmənin səbəbi isə rayonda yayılan şayiələrə söykənirmiş...**



Kərəm Həsənov

Prezidentin Cəlilabada səfəri öncəsi isə münasibətlər pik həddə çatıb. Bu səfərdən bir gün öncə Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov və bu rayondan deputat olan qardaşı Malik Həsənov rayona gedib. Ə.Əzizov rayondakı vəziyyət barəsində K.Həsənova danışandan sonra bütün günahları müavinin üstünə atıb. Bu rayonun qeyri-rəsmi kuratoru K.Həsənov prezidentin səfəri ilə bağlı hazırlıq işlərindən çox narazı qalıb. Komitə sədri RİH işçilərini danlayıb və o qədər əsəbiləşib ki, birinci müavin Asif Əzizovun ünvanına nalayiq ifadələr işlədib. Mənbənin dediyinə görə, peşəkar boksçu olan A.Əzizovun da əsəbləri tab gətirməyib və komitə sədrinin cavabını eyni tonda verib. Həmin vaxt komitə sədrinin deputat qardaşı 1-ci müavini vurmaq istəyib. Lakin əksi baş verib. Peşəkar boksçu olan A.Əzizov ona əl-qol atan Həsənovları vurub, qan tökülüb.

Prezidentin rayona səfəri başa çatan kimi A.Əzizovun işdən çıxarıldığı elan olunub. Maraqlıdır ki, prezidentin səfəri zamanı deputat Malik Həsənov iştirak etməyib. Halbuki məhz görüşdə iştirak etmək üçün o, 1 gün əvvəldən rayonda olub. Belə məlumatlar var ki, başçının kabinetindəki dava zamanı M.Həsənovun aldığı xəsarətlər onun ortalığa çıxmasına imkan verməyib.

Bildirilir ki, A.Əzizov Cəlilabadda tanınmış nəslin nümayəndəsidir. Onun rayonda böyük hörməti var. Belə bir hörmətlə anılmayan Həsənovlar isə bundan təlaşa düşüblər. A.Əzizovun onların nəzarətindən kənar rayona başçı təyin olunacağından əndişələniblər.

A.Əzizov işdən çıxarılmazdan öncə barəsində ən müxtəlif şayiələr yayılıb. Onun rayona icra başçısı gəlmək niyyətində olduğu xəbəri də həmin şayiələrdən biri olub. K.Həsənovun A.Əzizovla belə bir tonda danışmasının əvvəlcədən planlaşdırılan ssenari olması ehtimalı da var. Həsənovlar A.Əzizovu yaxşı tanıdıqlarından onun söyüşə necə reaksiya verəcəyini, susmayacağını təxmin ediblər. Gözləmədikləri isə söyüşə, ona qarşı qabalığa qarşı bu şəkildə qarşılıq verəcəyi olub.

Hələlik Həsənovlar istədiklərinə nail olublar. Başçı müavinini provokasiyaya çəkib onu işdən çıxara biliblər. İcra başçısının sabiq müavini də işi belə qoymayacağını deyib.

❑ **E.HÜSEYNOV**

# Hacı İbrahimin 1 milyard borcu olduğu üzə çıxdı

## İş adamının 240 min dollarlıq saatı da oğurlandı



İbrahim Nehrəmli

**"Avesta Konserni" MMC-nin sahibi Hacı İbrahim Nehrəmlinin 240 min dollarlıq saatı oğurlanıb. "Report"un xəbərinə görə, İ.Nehrəmli saatını avtomobilində qoyub, geri qayıdarkən onu yerində tapmayıb. İş adamı faktla bağlı hüquq-mühafizə orqanlarına müraciət edib. Lakin sonradan şikayətini geri götürüb. İbrahim Nehrəmli sayta açıqlamasında "burda polislik bir iş yoxdur" deməklə kifayətlənib.**

Hacı İbrahim Nehrəmlinin başı aylardır ki, qaldadır.

Bildirilir ki, saatı yoxa çıxandan sonra da onu Daxili İşlər Nazirliyi Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinə çağırıblar. Ondan növbəti dəfə kreditləri geri qaytarması istənilib. Hacı İbrahim Nehrəmli Beynəlxalq Banka olan borcunu da anspress-ə açıqlayıb. Onun sözlərinə görə, banka ümumilikdə 450 milyon manat kredit borcu var. 240 min manatlıq saatının oğurlanması haqda məlumat yayılan iş adamının Beynəlxalq Banka 1 milyarda yaxın borcu olması haqda məlumat yayılıb.

Bir qədər əvvəl mətbuata verdiyi açıqlamasında iş adamı Beynəlxalq Bankın nümayəndə heyətinin onun 5 obyektini qiymətləndirdiyini açıqlamışdı. Demişdi ki, həmin 5 obyektə bankın qoyduğu qiymət 1.5 milyard manatdır. "Əgər bank mənim borclarımı ödəməyimi istəyirsə, gəlib həmin obyektlərimi ala bilər. İki gündən bir "Bandotdel" tərəfindən çağırılmağım doğru deyil. Mən bankı buna görə məhkəməyə verməyə hazırlaşıram" -deyə iş adamı bildirmişdi.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 182 (6210) 20 avqust 2015



# V.Putin bizim qeydimizə necə qalırdı?...

Hüseynbala SƏLİMOV

**Bir ara mənə elə gəlirdi ki, iki Almaniyadan sonra dünyanın ən xoşbəxt ölkələri Rumıniya və Moldovadır... Ona görə ki, onların qovuşmaq və birgə olmaq məsələsində problem yoxdur. Fəqət, reallıqda nə görürük?..**

Bu iki ölkə sovet işğalından qurtulandan sonra onların birləşmək məsələsi gündəmdən çıxmır, amma reallığa da çevrilmir - bir hakimiyyət gedir, o birisi gəlir, problem isə qalır...

Bir dəfə Polşada olarkən moldovalı qızla bu mövzuda etdiyim söhbət hələ də yadımdan çıxmır. Mənim birləşmək haqqındakı sualıma o, ah çəkməklə cavab verdi. O vaxt mənə elə gəldi ki, birləşmək məsələsi daha çox Rumıniyadan asılıdır...

Hətta səthi fikirləşəndə görürsən ki, birləşməklə bu iki ölkə çox şey əldə edə bilərdi... Rumıniya bir az da böyük dövlətə çevrilər, onun AB-dəki və NATO-dakı nüfuzu artardı. Bu proses elə Moldova üçün hədər keçməzdi. O, da Rumıniyanın tərkibində AB-yə və NATO-ya inteqrasiya olunar və ən başlıcası məşəqqətli keçid prosesindən canını qurtarar, hətta mümkündür ki, Dnestr problemini də həll edərdi...

Bunları niyə görə yazıram? Bu yaxınlarda Rumıniyanın eks-prezidenti belə bir fikir irəli sürüb ki, iki ölkənin birləşməsi üçün referendum keçirilsin...

Təbii ki, bu, bir təklifdir. Hələ məlum deyil ki, ona reaksiya necə olacaq? Hər halda, bizə məlum olduğuna görə, nə Rumıniyadakı, nə də ki, Moldovadakı hakimiyyət bu məsələni sürətləndirməyə cəhd etmir...

Əsas problem nədir? Mən bunu bəzəmədən "mədə" problemi adlandırardım.

Bəli, Rumıniya Almaniya kimi varlı dövlət deyil. O vaxt Qərbi Almaniya digər Almaniyanın - sovet Almaniyasının bütün ağırlığını çiyinlərinə götürdü...

Hiss olunur ki, Rumıniyanın belə imkanı və arzusu yoxdur. Düzdür, bizim Moldova çox kasıb, həm də korrupsiyaya qurşanmış ölkədir. Elə ona görə də ona "bizim Moldova" deyirəm - korrupsiya tanış sindromdur... O, həm də ona görə "bizim"dir ki, o, da on beş respublikadan biri idi...

Həm də bu iki ölkənin vasitəsilə öz dərdimizi - bizim Cənub problemimizi dilə gətirmək istəyirəm. "Başqaları gəlib bizim çörəyimizi, işimizi əlimizdən alacaq!" fəlsəfəsi bizə də tanışdır. Bu məsələ ilə bağlı ən absurd fikri bilirsiniz mən nə vaxt və kimdən eşitmişəm? Bunu Rusiya prezidentinin dilindən eşitmiş və bir xeyli gülmüşdüm. Bəli, belə məlum olurdu ki, V.Putin cənabları da bizim dərdimizi çəkirmiş...

Sən demə, onu narahat edən bu imiş ki, İranda bir şey olsa, onda şimaldakı azərbaycanlılar cənubluların "ayaqları altında qalacaq". Təbii ki, V.Putin bizim qəzetlərin xülasəsini oxumur. Amma mən o vaxt yazmışdım ki, Rusiya əsgərlərinin çəkmələri altında qalmaqdansa cənublu azərbaycanlıların "ayaqları altında qalmaq" daha xoşdur...

Qərəz, indi bizim Cənub problemimiz haqda heç kim yazmır, heç kim danışmır. Amma bir vaxt deyirdilər ki, əşi, filankəs danışmasa, guya bu boyda millət öz problemini unudacaq?

Budur, artıq filankəs yoxdur. Amma bu boyda millət elə özü boyda problemini tamam-kamal unudub. Cənublu qardaşlarımız da elə bil yuxuya gediblər. Deyirlər ki, filan dövlət belə istəyir, o birisi bu cür istəyir... Soruşan yoxdur ki, bəs siz özünüz necə istəyirsiniz?...

Əsas odur ki, biz istəyək! Biz isə istəmirik... Təbii ki, razıyam, çətin məsələdir və onun bir gün içində həllini gözləmək müşküldür...

Rumıniya ilə Moldova ikisi də müstəqil dövlətdir, amma birləşə bilmirlər... Biz isə yalnız şimalda müstəqillik əldə etmişik...

Deyə bilərlər ki, bu, nəyə lazım? İndi gediş-gəliş asandır, onlar bura gəlir, biz isə ora gedirik... Düzdür... Amma axıra qədər düz deyil...

Parçalanmış ailələr hər vaxt bir olmağa, birgələşməyə çalışır. Elə millət də belədir. Parçalanmış millətlər də qovuşmağa cəhd etməlidir...

Bəli, yenə də deyə bilərlər ki, ona qalsa, demək olar, heç bir millət yalnız bir dövlətin ərazisində yaşamır. Bütün millətləri birləşdirməyə çalışsaq onda gərək dövlətlərin hamısını parçalayaq. Yox, heç də belə deyil. O torpaqların, yəni indiki İranın torpaqlarının bir hissəsi bizim olub və biz o torpaqların həmişə yerli və dominant əhalisi olmuşuq, ermənilər 100-150 il bundan əvvəl Qarabağa köçürülən kimi oralara köçürülməmişik...

Təbii, asan problem deyil. Onun bir neçə formul üzrə həlli mümkündür - vacib deyil ki, mütləq harasa parçalansın. Cənublulara mədəni hüquqlar verilsə onda bu söhbəti bir qədər arxa plana keçirmək olar...

---

**Ötən həftə Milli Şura 1 noyabrda keçiriləcək parlament seçkiləri məsələsini müzakirə edib və seçkilərin demokratik keçiriləcəyinə əngəl olan halların olduğu barədə sənəd yayıb. Bundan sonra isə Milli Şuranın sədri və AXCP rəhbərliyinə daxil olan şəxslər seçkilərdə iştirak etməyin mənasız olduğunu bəyan ediblər. Milli Şuradan və AXCP-dən seçki tamaşasında dekorasiya olmamaq, seçkini boykot etmək çağırışları gəlməkdədir.**

# Hakimiyyətdən seçkini boykot çağırışlarına reaksiya

## Aydın Mirzəzadə: "Seçkidə iştirak onların özləri üçün böyük bir problemdir"

Müxalifət düşərgəsindən boykot çağırışlarına sərt reaksiyalar verilib. Müsavat, ADP, Ümid Partiyası, KXCP, AXP, Azadlıq Partiyası, AMİP, VİP və digər partiyalar seçkilərdə iştirak etməyin partiya üçün daha məqbul olduğunu, boykot taktikasının zərərli olduğunu bəyan ediblər.

Azadlıq Partiyasının sədri Əhməd Oruc və Müsavat başqanının müavini Səxavət Soltanlı artıq bu çağırışa etiraz edib. **Müsavatın Divan üzvü, sabiq deputat İkram İsrafil** isə bəyan edib ki, Müsavat parlament seçkilərində iştirak edəcəyinə dair qərar verib. Onun sözlərinə görə, partiya hazırda özünün namizədlərini və imkanlarını qiymətləndirir: "Mən siyasi partiyaların, siyasətçilərin seçkiləri boykot təkliflərini və niyyətlərini doğru hesab etmirəm. Son iyirmi ildə boykot olunan və iştirak olunan seçkilər və sonrakı dövrün qınaqlarını yadınıza salın. Boykot etdiyimiz seçkilər olub. Lakin sonradan biz buna görə həm siyasi, həm də ictimai qınaqla rastlaşmışıq. Ümumiyyətlə, siyasi partiyanın, siyasətçinin seçkiləri boykot etməsi başadüşülən deyil. İnsanların rəyini nəzərə almadan seçkiləri boykota çağırmaq siyasi fərarilikdir".

**ADP sədri Sərdar Cəlaloğlu da Milli Şuranı kəskin tənqid edib, bu qurumun mövcudluğunu dövlət müstəqilliyinə təhlükə hesab edib:** "Mən şəxsən



Aydın Mirzəzadə

Milli Şuranın mövcudluğundan narahatam. Çünki Milli Şura Rusiyanın planı əsasında yaradılıb. Biz bilmirik ki, Rusiyanın Azərbaycanla bağlı niyyəti nədir. Azərbaycanı Avrasiya İttifaqına daxil etmək istəyirlər. Bu baxımdan, ola bilər ki, Milli Şura müəyyən məsələlərin fövqündə aktivləşdirilsin. Bu da məni narahat edir. Çünki Milli Şuranın fəaliyyəti dövlət müstəqilliyi ilə bağlıdır. Ancaq Müsavatla bizim bir-birimizə hücumumuz normaldır. Çünki biz də, Müsavat da Azərbaycanın suverenliyini istəyirik. Odur ki, bizim bir-birimizə hücumumuz başqa mənadadır. Lakin Azərbaycanın suverenliyinə təhlükə törədən qüvvələrin bizə hücumu tamam başqa məna kəsb edir. Milli Şuranın digər partiyaları seçkidən çəkindirmək üçün atdığı addımlar mənasızdır. Fəlsəfədə subyektiv idealizm var. Bunun da mahiyyətində bu durur ki, mən varamsa, dünya da var, mən yoxamsa, dünya da yoxdur. İndi Milli Şuranın təmsilçiləri özlərini subyektiv idealizmin nümayəndələri kimi aparır. Onlar hesab edirlər ki, nəyisə görür və həqiqət hesab edirlərsə, bu var. Nəyisə görmürlərsə, o şey yoxdur. Bu da dünyagörüşünün kasadlığı ilə bağlı məqamdır".

**Seçkiləri boykot çağırışlarına hakimiyyətin münasibətinə gəlincə, hakim Yeni Azərbaycan Partiyasının şöbə müdiri, deputat Aydın Mirzəzadə "Yeni Müsavat"a bildirdi ki, ölkədə dövlət qeydiyyatında olan 55 partiyadan cəmi bir-ikisinin seçkiyə qatılmamasının seçkiyə heç bir təsiri ola bilməz:** "Seçkidə iştirak etmək arzusunu bəyan edən kifayət qədər çoxsaylı partiyalar var. Seçki siyasi rəqabət şəraitində, demokratik, şəffaf keçəcək. 55 partiyadan birinin seçkini boykot etməsi isə onun özünün problemidir. AXCP-nin və Milli Şuranın bu gün hər hansı nüfuzundan, əhəmiyyətli sosial bazasından danışmağa dəyməz. Onların Azərbaycan coğrafiyası üzrə yerli təşkilatları ya yoxdur və yaxud da bir-iki nəfərlə təmsil olunurlar. AXCP və Milli Şuranın tərkibində arxasınca milyonları apara biləcək insanlar yoxdur. Partiya və Şura Azərbaycanın problemlərinə dair hər hansı bir yaradıcı proqram ortaya qoya bilmir. Onlar partiyadan, proqram hazırlamaqdan daha çox xaricdən vəsait əldə etmək haqqında düşünürlər. Ona görə də onların seçkidə iştirak onların özləri üçün böyük bir problemdir. Çünki 125 dairə üzrə ortaya qoyacaq namizədləri yoxdur. Onların seçkidə iştirakı onların siyasi iflasının rəsmi şəkildə təsdiq edilməsi olardı. Üzdə olan bir neçə nəfər isə kabinet siyasəti çərçivəsindən kənara çıxmırlar. Cəmiyyətin onların mövcudluğundan ümumiyyətlə xəbəri yoxdur. Onların hansı siyasət yeritməsi, seçkidə iştirak edib-etməməsi cəmiyyətin marağında deyil".

**YAP təmsilçisi hesab edir ki, seçkini boykot etmək barədə çağırışları isə müəyyən qüvvəsi olan, parlament seçkilərində iştirak edib özünü təsdiqləmək istəyən partiyaları bu yoldan çəkindirmək məqsədi daşıyır:** "Düzdür, bu gün Yeni Azərbaycan Partiyasının yenidən qələbə çalacağı gözlənilir, partiyanın apardığı siyasət milyonlarla insanı öz ətrafına toplayır. Lakin digər partiyaların və bitərəflərin də parlamentdə yer qazanmaq şansları yüksəkdir. AXCP və Şura digər müxalifət partiyalarını özlərinin səviyyəsinə endirməyə çalışırlar, özlərinin məğlubiyyətinin müəllifinə çevirməyə nail olmaq istəyirlər. Aydın məsələdir ki, bu gün digər müxalifət partiyaları AXCP-nin yedək təşkilatları olmaq istəmirlər. Odur ki, AXCP-nin, Şuranın seçkiləri boykot çağrışı onların özlərinin fiaskosu ilə nəticələnəcək. Mətbuatda gedən müzakirələrdən göründüyü və həmişə olduğu kimi bu dəfə də onlar azlıqda qalacaqlar".

❑ Etibar SEYİDAĞA

---

# ADP ilə Ümid seçkiyə ayrılıqda qatılası oldular

## Müttəfiqlər seçkiyə blok şəklində getmək barədə razılaşa bilmədilər

**Dünən Ümid Partiyasının qərargahında "Qarabağ" Blokunun iclası keçirilib. ADP mətbuat xidmətindən verilən xəbərə görə, iclasda hər iki partiyanın qarşıdan gələn parlament seçkilərində iştirakı məsələsinə baxılıb.**







Ümid Partiyasının "125-lər" adlı seçki bloku ilə iki illik əməkdaşlığını, bu blokda seçkilərə qatılmağa üstünlük verdiyini və ADP-nin "125-lər" bloku ilə bu günə qədər heç bir əməkdaşlıq etmədiyini əsas götürərək Ümid Partiyası ilə Azərbaycan Demokrat Partiyası seçkilərdə ayrı-ayrılıqda, öz namizədləri ilə, müstəqil iştirak etmək haqqında razılıq əldə ediblər. Bununla da ADP seçkilərdə təklikdə iştirak etmək məsələsinə baxmaq üçün partiyanın müvafiq seçkili orqanının növbədənkənar yığıncağının çağırılması haqda qərara gəlib.

Qeyd edək ki, ADP ilə Ümid Partiyası artıq bir neçə ildir "Qarabağ" siyasi blokunda müttəfiqlik edirlər. İki həftə əvvəl ADP sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a açıqlamasında rəhbərlik etdiyi partiya ilə Ümid Partiyasının parlament seçkilərində vahid bir blok şəklində iştirak etmək barədə ilkin razılıq əldə etdiyini bildirmişdi. S.Cəlaloğlu məlumat vermişdi ki, yaradılacaq yeni bloka üçüncü tanınmış bir partiya da qoşulmaq istəyir. ADP sədri bu məsələnin həmin partiyanın rəhbəri ilə birlikdə müzakirə ediləcəyini, ümumi prinsipial razılıqlar əldə ediləcəyi və həmin partiya da qoşulacağı halda blokun adının "Qarabağ" blokundan fərqli ad olacağını, yeni blokun rəsmi təsisçisinin də Ümid Partiyası, ADP və həmin adını gizli saxladığı partiya olacağını demişdi. S.Cəlaloğlu həmin partiyanın adının da razılıq əldə olunduqdan sonra ictimaiyyətə açıqlanacağını bildirmişdi.

Dünən ADP ilə Ümid Partiyasının seçkilərdə ayrı-ayrılıqda iştirak edəcəyi barədə razılıq əldə olunduğunun rəsmi açıqlanması onu deməyə əsas verir ki, adı gizli saxlanılan üçüncü partiya ilə danışıqlar müsbət nəticələnməyib. Nəticədə hətta ADP ilə Ümidin seçkidə birgə iştirak etmək barədə razılaşması da pozulub. S.Cəlaloğlu iki həftə əvvəlki açıqlamasında üçüncü partiya ilə razılaşma baş tutmayacağı halda Ümidlə ADP-nin blok şəklində seçkidə birlikdə iştirak edəcəyinin razılaşdırıldığını söyləmişdi.

❑ E.SEYİDAĞA



## Müsavat başqanı Avropa İttifaqının təmsilçiləri ilə görüşdü

**Avqustun 19-da Müsavat Partiyasının başqanı Arif Hacılı partiyanın mərkəzi qərargahında Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Malena Mard və nümayəndəliyin siyasi, iqtisadi, mətbuat və informasiya şöbəsinin rəhbəri Toralf Piltsla görüşüb. Partiyadan verilən xəbərə görə, görüşdə Avropa İttifaqı strukturları ilə Müsavat Partiyası arasında əməkdaşlığın daha da yaxşılaşdırılması, avrointeqrasiya məsələləri, ölkəmizdə ictimai-siyasi vəziyyət, Qarabağ konfliktinin ədalətli həlli yolları, siyasi məhbuslar problemi, yaxınlaşan parlament seçkiləri və digər məsələlər müzakirə olunub.**

Tərəflər qarşılıqlı əməkdaşlığın davam etdirilməsi və intensivləşdirilməsinin vacibliyini qeyd ediblər.

Görüşdə Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlı da iştirak edib.

❑ **E.SEYİDAĞA**

# “Ağ Blok” təqdimata hazırlaşır

## Blokun təmsilçisi Tural Abbaslı ölkə gəncliyinə müraciət etdi: “Azərbaycanda indiyədək aparılan yanlış siyasət nəticəsində xalqın siyasi proseslərə inamı qırılıb”

**Avqustun 23-də saat 16:00-da ADP qərargahında “Ağ Blok”un təqdimatı keçiriləcək. Qarşıdan gələn parlament seçkiləri ilə bağlı yaradılmış, əsasən gənclərdən təşkil olunmuş qurum tədbirdə deputatlığa namizədlərini də cəmiyyətə təqdim edəcək. Xarici ölkə səfirlikləri, media nümayəndələri, digər siyasi qurumlar da tədbirə dəvət olunacaq.**

Blokun parlament seçkiləri və ondan sonrakı dönəmdəki hədəfləri açıqlanacaq.

Təqdimat barədə “Yeni Müsavat”a danışan “Ağ Blok”un təmsilçilərindən olan **Tural Abbaslı** tədbirin məqsədi, formatı barədə geniş məlumat verdi: “Məqsədimiz blokun namizədlərinin cəmiyyətə, mətbuata və siyasi arenaya təqdim etməkdir. Təkcə namizədlərimizin yox, ”Ağ Blok"un özünün də ictimai təqdimatı nəzərdə tutulub. Əsasən tədbirdə gənclərin kütləvi şəkildə iştiraklarını gözləyirik. Mesajlarımızı verəcəyik. Namizədlərimizin dairələri elan olunacaq. Onların qısa çıxışları olacaq. Diqqətçəkən, hər kəs tərəfindən rəğbətlə qarşılanacaq tədbir keçirmək niyyətindəyik. Seçki ilidir, prosesləri sürətləndirməliyik. Bildiyimiz kimi, seçkiyə start verilməsinə 10 gün qalıb. Amma hələ də prosesləri başladan qurum yoxdur. Ümumiyyətlə, seçki mühiti hiss olunmur. Hamımız yaxşı bilirik ki, seçkidən başqa heç bir yolla dəyişiklik etmək mümkün deyil. Seçkiləri xalq və siyasi arena üçün maraqlı etməliyik. Buna məcburuq. Seçkilərə qatılmaq lazımdır ki, saxtalaşdırma az olsun. Bu proses insanların həyatlarına nə qədər təsir etsə, bir o qədər müsbət olar. Tədbirimiz bu missiyanı üzərinə götürüb, həyata keçirmiş olacaq. Təki bizdən sonra da digər qurumlar bu tərzdə tədbirlər keçirsinlər. Xalq qarşıdan gələn seçkilərin önəmini hiss etməlidir".


Tural Abbaslı

**“Ağ Blok” təmsilçisi siyasi proseslərin olmamasından şikayətləndi:** “Təəssüflər olsun ki, Azərbaycanda indiyədək aparılan yanlış siyasət nəticəsində xalqın siyasi proseslərə inamı qırıldı. Bu sirr deyil. Müxalifət olaraq, mövqelərimiz hakimiyyət qarşısında xeyli zəifləyib. Seçkilərdəki uğursuzluqlar, partiyalararası davalar müxalifəti proseslərdən kənar qoyub. İndiki vaxtda kütləvi aksiyaların təşkili qəliz məsələdir. Son illərdəki aksiyalar dediklərimin sübutudur. Belə vəziyyətdə gənclərdən təşkil olunmuş blok olaraq, kütləvi tədbirin keçirilməsi bizim üçün risklidir. Əminəm ki, öhdəsindən gələcəyik. Əsasən, gənclərdən ibarət kollektivi ora yığmaq niyyətindəyik. Hər kəs dəvətlidir. Bu istiqamətdə işlərimiz gedir. Sosial şəbəkələrdə event yaradılıb. Dəvətlərin bir qismi artıq göndərilib. Kütləviliyin təşkil olunması istiqamətində səylə çalışırıq. Texniki məsələləri artıq həll etmişik. İnanıram ki, hazırda siyasi arenada olan partiyaların əksəriyyətindən fərqli olaraq, möhtəşəm bir tədbir keçirəcəyik”.

**Tural Abbaslı gəncliyə müraciət etdi:** “Yeniliyə meylli olan ölkə gənclərinə müraciət edirəm. Hər kəsi bu tədbirdə iştiraka səsləyirəm. İstənilən sualları verə bilərlər. Güc birlikdədir. Tədbirə gələn insanlardan imkan daxilində xahiş edirəm ki, ağ köynəklərlə gəlsinlər. Bu həm də bizə rəmzi dəstək olar. Güman edirəm ki, məqsədlərimizin reallaşması üçün dəstəkçilər çox olacaq”.

❑ **Cavanşir ABBASLI**

# AMİP Etibar Məmmədovun seçkiyə qatılacağından xəbərsizdir

## Adıçəkilən partiyanın daha bir keçmiş sədri də deputat olmaq istəyir

**Seçki kampaniyasına rəsmi start verilməsinə təxminən 10 gün qalıb. Artıq bir sıra partiyalar, tanınmış şəxslər seçkilərdə iştirak etməklə bağlı yekun qərar qəbul etməkdədir. Uzun illər Azərbaycan siyasət meydanında söz sahiblərindən biri olan və 2004-cü ildən siyasətdən uzaqlaşan AMİP lideri Etibar Məmmədovun seçkidə iştirak edib-etməyəcəyi ilə maraqlandıq.**


Etibar Məmmədov

AMİP katibi Elşən Mustafayev bildirdi ki, seçkilər proporsional qaydada keçirilmədiyindən partiyanın liderinin namizədliyi məsələsi partiyadan çox onun özündən asılıdır: “Majoritar sistemin fərqi odur ki, sıralamanın önəm kəsb etdiyi partiya siyahısı olmur, şəxslər fərdi qaydada namizədliklərini irəli sürürlər. Etibar Məmmədovun da parlament seçkilərində namizədliyini verib-verməməsi onun şəxsən özündən asılıdır. Etibar Məmmədovun namizəd olacağı ilə bağlı partiyada hər hansı məlumat yoxdur. Seçkidə iştirak etmək Etibar bəyin özünün verə biləcəyi qərardır. Belə bir qərar olsa, AMİP üzərinə düşəni edəcək. Hələlik isə Etibar Məmmədov tərəfindən belə bir qərar yoxdur. Biz istərdik ki, partiyanın lideri namizəd olsun. Amma bu, bizim istəyimizdən asılı deyil. Etibar Məmmədovun deputatlığa namizəd olması bu gün partiyada müzakirə obyekti deyil”.

**E.Mustafayev onu da dedi ki, AMİP-də deputatlığa namizədlərin müəyyənləşdirilməsi prosesi davam edir. Bir çox dairələr üzrə namizədlər dəqiqləşib:** “Seçkilərdə hansı dairədə hansı namizədin daha şanslı olduğunu təhlil edib qərarı bundan sonra veririk. Biz kəmiyyətdən çox keyfiyyətə önəm verməyə çalışırıq. AMİP deputatlığa namizədlərinin siyahısını sentyabrın 1-dək açıqlayacaq. Ötən parlament seçkilərinə AMİP 70 namizədlə qoşulmuşdu. Onların bir hissəsini seçki komissiyası qeydə almamışdı. Biz perspektivinin olduğunu gördüyümüz blok və ya birlik olacağı halda orada təmsil olunmağa hazır olduğumuzu əvvəldən bəyan etmişik və bu mövqeyimizdə qalırıq. Bu gün üçün belə bir blok və birliklə bağlı danışmaq tezdir. Digər siyasi qüvvələrlə seçkinin müşahidəçiliyini həyata keçirməyi mümkün sayırıq və bu barədə bir sıra partiyalarla danışıqlar gedir. Seçki ilə bağlı bu və digər məsələlərə daha ciddi aydınlıq bu ayın sonunda gələcək".

**AMİP daha bir keçmiş sədri, hazırda “Azadlıq 2015" seçki blokunda təmsil olunan VİP-in sədri Əli Əliyev isə seçkidə iştirak edəcək. Bu barədə moderator.az-a açıqlamasında Əli Əliyev deyib ki, partiya olaraq ”Azadlıq 2015" seçki blokundan seçkiyə qatılırlar, şəxsən özünün namizədliyi Bakıdakı seçki dairələrindən birindən irəli sürüləcək:** “Partiyamızın 40-a yaxın namizədi seçkidə iştirak etmək üçün təqdim olunub. Hazırda digər partiyaların namizədləri açıqlanıb və daha şanslı namizədlər blokun namizədi olacaq. Mənə gəldikdə isə partiya sədri kimi istənilən dairədən namizədliyimi verib qələbə qazanmaq şanslarımı yüksək qiymətləndirirəm. Bu seçkilərdə də blokun və özümün şanslarımı yüksək qiymətləndirirəm. Bu günə qədər namizəd olacağım dairəni müəyyən etməməyimin səbəbi isə digər partiyaların mövqeyini gözləməyimlə bağlıdır. Onu deyə bilərəm ki, namizədliyimi Bakıdan irəli sürəcəyəm”.

❑ **E.SEYİDAĞA**

## Hakimiyyət məşhur siyasiləri azad edəcəkmi...

### Qurban bayramında əfv veriləcəyi deyilir; **Mirvari Qəhrəmanlı:** “Əfvin verilməsi üçün şərait yaranmalıdır”


Mirvari Qəhrəmanlı

**Son aylarda Azərbaycanda siyasi fəalların məhkəmələri çox sürətlə aparıldı. Leyla və Arif Yunusların məhkəməsi cəmi bir ay çəkdi. Xədicə İsmayılın isə məhkəmə istintaqı yekunlaşmaq üzrədir. Hakimlər tələm-tələsik hökm oxumağa çalışdılar. Bütün bunlardan sonra bir versiya ortaya atıldı ki, hakimiyyət Qurban bayramında əfv sərəncamı verəcək və həbsdə olan məşhur siyasilərin əksəriyyətini azad edəcək. Bu səbəbdən də prosesləri tez bir zamanda yekunlaşdırırlar. “Yeni Müsavat” da öncəki saylarında bu barədə məlumat vermişdi.**

Nəzərə çatdıraq ki, iki il öncə Qurban bayramında əfv verilmiş və nəticədə Fərhad və Rafiq Əliyev qardaşları azad olunmuşdu. Builki bayramda - sentyabrın 25-də də bu tərzdə əfvin veriləcəyi barədə söz-söhbətlər gəzir.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı** yayılan xəbərlərin real olacağına inanmır: “Ramazan bayramında da dedim ki, əfv verilməyəcək. Bu bayrama da inanmıram. Şəxsi fikrimdir. Bəlkə prezident başqa cür düşünür. Ola bilsin ki, prezident Ramazanda verilmədiyi üçün indi əfv imzalasın. Hesab edirəm ki, Əfv Komissiyasının tərkibinə yenidən baxılmalıdır. Bu komissiyanın tərkibində aktiv insanlar olmalıdır. Onların aktivliyindən çox şey asılıdır. Bu proseslərdə 3-4 nəfərin əziyyətini görürəm. Beynəlxalq qurumlar siyasi məhbusların azad olunması istiqamətində strategiyalarında dəyişikliklər etməlidirlər. Çağırışlarına, bəyanatlarına diqqət yetirməlidilər. Hamımız 28 May Respublika Günündə əfv gözləyirdik. Təəssüf edirəm ki, həmin ərəfədə kəskin bir bəyanat verildi. Belə bəyanatlar olanda, Azərbaycandan ona qarşı tədbirlər görülür. Düşünürəm ki, 28 mayda məhz bu bəyanata görə əfv verilmədi. İqtidarın siyasətinin tam əksinə oldu. Beynəlxalq təşkilatlardan xahiş edirəm ki, övladları həbsdə olan analar, qardaş yolu gözləyən bacılar, nişanlısını yaxud həyat yoldaşını gözləyən insanları nəzərə alsınlar. Çox diqqətli olmaq lazımdır. Bu ilin sonuna qədər əfvin verilməsi üçün şərait yaranmalıdır. Seçkilər öncəsi əfv veriləcəyinə, açığı, ümid etmirəm. Hazırkı deputatlar zaman-zaman Milli Məclisdə məhbusların məsələsini qaldırmalı idilər”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 182 (6210) 20 avqust 2015

# Cəbhəlik eləmək



Zamin HACI
zaminhaci@gmail.com

"Satqın kimə deyilir?
Elə yalnız cəbhədə əlini qaldırana?
Bəli, yalnız cəbhədə əlini qaldırana!
Cahan - vuruş meydanı, biz əbədi cəbhədə...
Bu cəbhədə üz-üzədir, qeyrətli də, ... də"
**(Xəlil Rza, "Satqın kimə deyilir")**

**AXCP-dən çıxarılan, qovulan, istefa verən, kirə çıxan, yolda qalan, beli qırılan, saçı yolunan, dişi çıxarılan, başı şişən, cibi yırtılan (keyfiyyətlər çoxdur, hamısını sadalasam gərək ayrı yazı olsun) bir qrup insan dünən iclas qayırıblar, deyirlər əsl AXCP bizik.**

Bu ssenarini uca millətimiz bir neçə dəfə yaşayıbdır, lakin yorulmayıbdır. Güman edə bilərik bu təzə Cəbhənin də adı POXCP olacaqdır, yəni Postmodernist Xalq Cəbhəsi Partiyası. Partiya quruculuğuna girişmiş Razi və narazi bəylərin həyat yoluna baxarkən bu qənaətə gəlmək mümkündür, çünki indiyə qədər əlimizdə Cəbhənin klassiki var idi, onu seyidlər yaratmışdı. Bunlar isə gəncdir, perspektivlidir, dünya aeroportlarına çıxmış insanlardır. O baxımdan postmodernist cəbhə qayırmalıdırlar.

Hələ BAXCP də var, açması Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası deməkdir, təsəvvür edin, Azərbaycan bütövləşməyib, ancaq partiyası var. Nə ziyanı. Hələ əlifbada hərf çoxdur, hamısına layiq cəbhə yaratmalıyıq. Çünki cəbhə adı olduqca matah maldır. Misal üçün, dünən mən Razi müəllimi təzə partiya quruculuğu münasibəti ilə sosial şəbəkədə qutlayanda Taleh bəy adlı bir nəfər girib şərh yazdı: "EXCP mənimdir. Erotik Xalq Cəbhəsi Partiyası". Bəli. DXCP, MXCP, QXCP və sairə də vaxtında yaradılacaqdır. Cəbhə xəttində uğursuzluğa düçar olub torpağını itirən bir millətin cəbhə sözünə bu dərəcədə yanğısı başa düşüləndir. Qoy ermənilərin ürəyi partlasın. Biz onlara qarşı o qədər cəbhə açarıq, başlarını itirib qaçarlar. Hurrey! Hərəmiz bir cəbhəyik, şair demişkən. Bəlkə də heç şair belə deməyib. Amma ziyanı yoxdur, hesab eləyin deyibdir.

Razi müəllimə uğur diləyərək keçək əsl cəbhə xəttinə. Müdafiə Nazirliyində bu saat yay bürküsü hökm sürür, generallarımız qan-tərə batıblar. Hər gün kimsə işdən çıxarılır. Özü də deyirlər bu adamları Zakir müəllim nazir qoyulanda özü ilə vəzifəyə gətiribmiş. Bəs nə oldu? Bismillah eləməmiş komandanın yarısını "happ" elədilər. İndi bu çıxarılan generallar da təzə OXCP, üzr istəyirəm, MN qayırsalar, bizim İsa bulağında antrikot yemək arzularımızın təpəsinə yekə bir daş düşməzmi?

Eyni problem ərzaq dükanlarımızda yaşanır. Avropa oyunlarında xeyli xərci çıxan firmalar hazırda bu pulları uca millətimizin belinə şəlləyir, əcəb də eləyir. Alimin uçan xalçaya minməyinə, Mengistu Hayle Mariamın Azərbaycan komandası adından taxta medal qazanmasına sevinəndə gərək bu günü görəydiniz. Hərçənd, ərzaq monopolisti Azərsun müəllim deyir bahaçılıq Çində yuanın devalvasiyası ilə bağlıdır.

Əcəbdir. Bəs prezidentin hər dəfə dediyi "xarici böhranların bizim qüdrətli iqtisadiyyata təsiri yoxdur" sözü nə olsun? Yuan özü də. Elə bir şey ki, üzünü görməmişik. Cəhənnəm, avro olsaydı. Görünür AzTV barıtı az edib, Almaniya dağılmır. Cadu tərsinə vurub, cinlərimiz Çini alt-üst edibdir.

Prinsipcə, Azərsun müəllimin dediyində həqiqət elementləri vardır, son bir ayda Çin valyutası 3 dəfə qiymətdən düşübdür, bu da dünya bazarında bahalaşma yaradıb. Biz yaxşı bilirik ki, Azərsun əslində istehsal yox, qablaşdırma şirkətidir, əsas malları xaricdən topdan alıb burda qutuya doldurur, tək-tək satır. Yoxsa hardadır bizdə o qədər şəkər qamışı, günəbaxan tarlası, çay plantasiyası? Yəni, Azərsunun milli şirkətimiz olması, Azərbaycan malı buraxması əslində saxta bir şeydir. Belarusdan hissələr alıb Gəncə traktoru, Çindən dəmir-dümür gətirib Naxçıvan maşını buraxmağın eynisidir.

Sadəcə, neftin pulu sel kimi gələndə Azərsun müəllimin bahaçılığını büdcə zəhmətkeşlərinə atılan 5-10 faiz artımla yola vermək olurdu. İndi bir az çətindir. Amma problem yoxdur. Xalqımız dözümlü xalqdır. Jmıx da yeyərik, təki Ledi Qaqa Bakıya gəlsin.

Lap çətinlik olsa özüm təzə Azərsun yaradaram. Qazərsun adıyla.

# Qafqaz uğrunda ABŞ-Rusiya rəqabəti şiddətlənib

## Orxan Qafarlı: "ABŞ-da anlayırlar ki, Ermənistan və Gürcüstan Qərbin yanında yer aldıqdan sonra Azərbaycanla iş rahat olacaq"

**ABŞ 2015-ci ildə Gürcüstana əlavə olaraq 20 milyon dollar həcmində hərbi yardım edəcək. Bu barədə APA "Qruziya-onlayn" saytına istinadən xəbər yayıb. Məlumatda bildirilir ki, Pentaqonun mətbuat katibi Piter Kuk bu barədə avqustun 18-də ABŞ-ın müdafiə naziri Eştan Karter gürcüstanlı həmkarı Tina Xidaşeli arasında görüşdən sonra açıqlama verib.**



"Eştan Karter bildirib ki, ikitərəfli və çoxtərəfli təlimlər və treninqlər daxil olmaqla, ABŞ Gürcüstanla hərbi sahədə sıx əməkdaşlığı davam etdirmək niyyətindədir. Həmçinin nazir Gürcüstan-NATO komissiyası formatında da münasibətlərin inkişaf edəcəyini təsdiqləyib", - deyə P.Kuk bildirib.

Məlum olduğu kimi, ABŞ hökuməti artıq 10 ildən çoxdur Gürcüstan ordusunun təlim və təchizat işində önəmli paya sahibdir. Vaşinqton Qafqazda əsas müttəfiqi hesab etdiyi Tiflisi ayaqda saxlamaq üçün ona hərbi sahədə ciddi yardımlar edir.

Ancaq Cənubi Qafqazda xaricdən hərbi yardım alan ölkə yalnız Gürcüstan deyil. Ermənistan da vaxtaşırı əsasən Rusiyadan güzəştli şərtlərlə və ya sadəcə yardım olaraq silah alır. Aydın məsələdir ki, hazırda silah yardımı bir çox ölkələr arasında mövcuddur. Bu, həm də siyasi anlam daşıyır və bir ölkənin digərinə dəstəyini ehtiva edir.

Bu mənada Gürcüstan və Ermənistandan fərqli olaraq Azərbaycanın "himayədarı" yoxdur. Bakı silah-sursatını özü alır. Doğrudur, əvvəllər Vaşinqtonla, eləcə də Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlıq çərçivəsində hərbi yardımlar olub. Ancaq bu yardımlar daha çox təlim proqramlarına istiqamətlənib. Azərbaycana silah yardımının olmaması ölkəmizin varlı olması, bu silahları öz imkanları hesabına ala bilməsi ilə izah olunsa da, yardımdan çox hərbi-siyasi dəstək kimi qəbul olunan hərbi yardımın Azərbaycana edilməməsi Bakının güclü hərbi dəstəyinin olmaması kimi də yozulur.

**Yeni Türkiyə Araşdırmaları Mərkəzinin Avrasiya üzrə eksperti Orxan Qafarlı Cənubi Qafqaz ölkələrinə hərbi yardımların böyük dövlətlərin bu regiondakı rəqabəti kimi dəyərləndirir:** "Cənubi Qafqazda yaxın gələcəkdə Rusiya ilə ABŞ və AB arasında rəqabətin daha da güclənəcəyi siqnalları üç ilə yaxındır ki, alırıq. İlk siqnallar "ərəb baharı" ilə başladı və bu "baharın" Cənubi Qafqaz və Orta Asiyaya qədər davam etməsi istənilirdi. Məsələ ondadır ki, Qərbdə antirus və "şahin siyasəti" dəstəkləyən qruplar "Böyük Yaxın Şərq" dedikdə bunun coğrafi sərhədlərini klassik anlamda Yaxın Şərqin Məşriq (Şərqi) və Məğrib (Qərbi) ilə birlikdə Cənubi Qafqazı və Orta Asiyanı əhatə edirdi. Lakin Rusiya siyasi elitası bu layihələrdən xəbərdar olduğu üçün bu problemdən çıxış yolu olaraq Suriyada "ərəb baharı"nın dayanmasına çalışdı. Suriyada "ərəb baharı"nın məqsəd və məramı çox tezliklə terrorist qruplarının fəaliyyətinə çevrildi. Rusiya artıq belə bir təcrübəni Şimali Qafqazda çeçen müstəqillik hərəkatında yaşamışdı. Beləliklə, Rusiya Suriyada "ərəb baharı"nı elə durdurdu ki, bu oyanış "rus baharı"na çevrilə bilmədi. "Rus baharı" dediyimiz zaman postsovet coğrafiyasını nəzərdə tuturam. Rusiyanın bu antiinqilab ssenarilərinin müəllifi Qleb Pavlovskidir".

**O.Qafarlı deyir ki, bu mövzuda ikinci önəmli proses 2013-cü ilin sonu və 2014-cü ilin ilk üç ayında Ukrayna böhranı ilə başladı:** "Ukraynada proseslər başladıqda hər kəs üçün aydın idi ki, növbəti region Cənubi Qafqaz olacaq. Əslində bu proses "ərəb baharı"nın bir başqa formada davamı idi. Rusiya diqqət etdinizsə Ukraynada bənzər ssenari işlədi, ilk olaraq Krımı işğal etdi. Daha sonra Ukraynanın Şərqində bir konflikt yaratdı ki, uzun zaman Ukraynanın stabilləşməsi, AB və NATO kimi birliklərə inteqrasiyasını durdurdu. Qərbin hər vəchlə antirus çevrələmə siyasətinin qarşısını almağa çalışır".

**O.Qafarlı deyir ki, Rusiya Cənubi Qafqazda mövqelərini daha da möhkəmlətmək üçün Ermənistanda iqtidarda olan Qarabağ ermənilərinə dəstək sözü verir. Ekspertə görə, Moskva yardım və dəstək verməklə Ermənistanın Qərbin təsir dairəsinə düşməməsinə çalışır:** "Bugünlərdə ruslar Ermənistana satılan qaz qiymətlərində endirimlərə gedirlər. Hərbi dəstək üçün yeni silahlarla təmin edirlər. Ermənilərə böyük miqdarda kredit imkanları açılır. Bunun əsas səbəbi son zamanlar Rusiya və Azərbaycan arasında siyasi, iqtisadi və hərbi münasibətlərin düzəlməsidir. Ruslar ermənilərin narahatlığını ortadan qaldırmaq üçün bu yardımları edirlər. Digər tərəfdən, Rusiya eyni zamanda anlayır ki, Azərbaycandan çox Ermənistanda istər iqtisadi və siyasi olaraq bir inqilab reallaşdırmaq üçün Qərbin əlində münbit şərait var. Erməni iqtisadiyyatının bərbad vəziyyətdə olması, əhali arasında işsizliyin yüksək olması bu ölkədə inqilab imkanlarını artırır. Bunun üçün Rusiya erməni elitasına çox açıq siqnallar verir ki, əgər belə bir şey reallaşsa, Moskva Bakının yanında yer ala bilər. Bunun yanında da ermənilərə hərbi və iqtisadi yardımlar edirlər".



Orxan Qafarlı

**Ekspertə görə, ABŞ-ın Gürcüstana olan dəstəyi Vaşinqtonun Qafqazda möhkəmlənməsi, eləcə də gürcülərin ayaqda saxlanmasına hesablanıb:** "ABŞ Gürcüstanda hərbi və siyasi gücünü daha da gücləndirmək üçün 20 milyonluq hərbi yardım edib. Bunun bir səbəbi də mümkün olduğu qədər Ermənistanda ictimai fəallığı artırmaqdır. Yəni inqilab imkanlarından maksimum istifadə edəcək. Bunun üçün ABŞ-da "şahin" və antirus çevrələr daha çox Ermənistan üzərinə diqqətlərini yönəldirlər. ABŞ-da olan bu qruplar gözəl anlayırlar ki, Ermənistan və Gürcüstan Qərbin yanında yer aldıqdan sonra Azərbaycanla iş rahat olacaq. Onsuz da enerji layihələri ilə Qərblə iç-içə keçmiş Azərbaycan var. Rusiyanı alternativ enerji yolları ilə "mühasirəyə alan" yeganə ölkə Azərbaycandır. BTC, TANAP, TAP layihələri bunun açıq göstəricisidir. Siyasi olaraq da tam yanlarına çəkmək üçün Qərb ilk öncə Ermənistandan başlamaq istəyir. Çünki düşünür ki, Ermənistan Rusiyadan ayrılsa, Azərbaycanda güclünün, yeni birmənalı olaraq ABŞ-ın yanında olacaq. Yəni Azərbaycanın balanslı siyasəti deyil, tamamən Gürcüstan kimi ABŞ yanlı bir xarici siyasəti olacaq".

**❑ KƏNAN**

YENİ MÜSAVAT
N 182 (6210) 20 avqust 2015

# Bakıdan Kremlə "yumşaq güc" nümayişi

**Bir neçə həftə qabaq Azərbaycanda Rusiyaya bağlılığı şübhə doğurmayan "Avrasiya Hərəkatı" adlı qurumun yaradıldığı elan edildi. Hətta qurumun bəzi bölgələrdə (məsələn, Qazaxda) yerli strukturlarını təsis eləməyə cəhdlər olundu. Bu cəhdlər bəzi informasiyalara görə, davam edir.**



Yeni rusiyapərəsət siyasi qüvvənin başında duran iki şəxs - Azərbaycanın keçmiş milli təhlükəsizlik naziri, SSRİ KQB-sinin orta eşelonunun nümayəndələrindən sayılan Nəriman İmranov və Rusiya Ədliyyə Nazirliyinin yalançı generalı, təsir agenti və QRU-nun adamı olması şübhə doğurmayan İlqar Qasımov haqda oxucular yetərincə məlumatlıdır. Onların ölkə ictimai-siyasi mühitində neqativ planda qəbul edildiyi də çoxlarına bəllidir.

Elə maraqlısı da bunca mənfi imicə malik şəxslərin Azərbaycan cəmiyyətində rusiyayönlü quruma dəstəyi necə qazandıracaqları ilə bağlı idi. Ötən müddət göstərdi ki, belə dəstəyi almaq həqiqətən də asan məsələ deyil. Azərbaycan insanı, hər halda, bu kimi "şirnikləndirici ideya" və testlərdən bir neçə dəfə keçib. Üstəlik, Rusiya nə edir-etsin, Qarabağ (Ermənistan) məsələsinə görə onun cəmiyyətimizdəki imici çoxdan və ciddi şəkildə korlanıb.

Görünür, hakimiyyət də bu və digər reallıqlardan çıxış edərək, eyni zamanda Rusiyanı izafi qıcıqlandırmamaq və İmranov-Qasımov cütlüyünün ilkin addımlarını izləmək üçün bir müddət gözləmə mövqeyi tutub. Yəni ideya öz-özünə iflas olacaqsa, özünə zəmin tapa bilməyəcəksə, o zaman xüsusi kontur-tədbirlərə və Moskvanın diqqətini çəkən siyasi qalmaqala nə ehtiyac məntiqi.

Ancaq söhbət Rusiya kimi məkrli, Azərbaycanı öz hərbi-siyasi orbitinə qaytarmaq, Avrasiya İttifaqına üzv eləmək

## Rusiyaya bağlı 2 generalın həbsinə hazırlıq gedir - şok gəlişmə

### Hakimiyyət "Avrasiya Hərəkatı"na qarşı hərəkətə keçir; qurumun yaradıcıları olan Nəriman İmranov və İlqar Qasımovun tezliklə saxlanılacağı haqda məlumat yayılıb; Moskvanın burdakı "5-ci kolon"çularının "ovu" başlayır?

üçün yollar arayan, min cür oyundan çıxan dövlətdən gedirsə, məsələni başlı-başına buraxmaq da strateji yanlışlıq olardı. Ən azı ona görə ki, tam cəzasızlıq və arxayınçılıq hiss edən Rusiya "5-ci kolon"çuları başqa formalarda fəallaşa, cəmiyyətin müəyyən təbəqəsinin saqqızını oğurlaya bilərlər.

Təsadüfi deyil ki, Azərbaycanda "Avrasiya Hərəkatı"nın elan edilməsindən çox keçməmiş Moskvanın ölkəmizdə hərbi baza qurmaq istədiyi haqda xəbər yayılıb. Rusiya Müdafiə Nazirliyinin "Zvezda" telekanalı bildirib ki, Kreml 3 il öncə bağlanmış Qəbələ RLS-in yerində bu dəfə daha modern bir stansiya qurmaq niyyətindədir.

***

Ən maraqlısı isə budur ki, bu xəbərdən cəmi iki gün sonra Nəriman İmranov və İlqar Qasımovun həbsinə hazırlıq getdiyi barədə informasiya yayılıb. Virtualaz. org saytı mötəbər mənbələrə istinadən xəbər verib ki, QRU-nun Bakıda təxribatçı-pozucu işləri fəallaşdırmaq üçün yeni təşəbbüsü Azərbaycanın yüksək dairələrində əsəbiliklə qarşılanıb.

**"Hakimiyyət Rusiya xüsusi xidmət orqanlarının pərdəarxası dairələri qarşısında öz sarsılmaz iradəsini nümayiş etdirmək üçün qətiyyətli tədbirlər görməyə hazırlaşır. Həm İmranovun, həm də Qasımovun həbsi imkanlarını nəzərdən keçirir və bugünlərdə onlar həbs edilə bilərlər"** - məlumatda iddia edilir.

Hələ ki müvafiq instansiyalar məsələ ilə bağlı hansısa açıqlama verməyib. Ancaq görünən budur ki, rəsmi Bakı Rusiya ilə münasibətlərə nə qədər önəm versə də, bu münasibətlərin həm də bəlli bir çərçivədə qalmasında maraqlıdır və Kremlin "təsir agentləri"nin və "5-ci kolon"çuların Azərbaycanda hakimiyyət saymazyana şəkildə sərbəst hərəkətlərindən məmnun deyil. Həm də o səbəbə ki, ölkədəki situasiyaya nəzarəti itirmiş kimi görünmək istəmir və ən önəmlisi, rəsmi Moskvanın Azərbaycanda hər şeyə qadir olması rəyinin yaranmasına qarşıdır. Üstəgəl, Qəbələ RLS-in bərpası söz-söhbətləri fonunda daha da zəifləmiş, geri çəkilmiş kimi görünməsi fonunda hakimiyyətin Moskvaya qarşı "yumşaq güc" nümayişinə qərar verməsi istisna deyil.

***

Bir daha qeyd edək ki, Azərbaycanda Kremin "5-ci kolon"unu yaradıb təşkilatlandırmaq cəhdləri nə qədər qeyri-mümkün, iflasa məhkum görünsə də, təhlükəni tamamilə çıxdaş eləmək olmaz. Çünki söhbət hər necə olmasa, Rusiyaya bağlı planlar və Kremlin dəstəyindən gedir. Bəs görəsən, Moskvanın özü bu həbslərə necə reaksiya verəcək. Bir maraqlı sual da yəqin ki, budur.

Ancaq buna şübhə yox ki, Rusiya Gürcüstan kimi, ölkəmizi də öz siyasi-hərbi orbitinə qaytarmaq üçün arsenalındakı siyasi, hərbi, ideoloji xarakterli bütün təsir, təzyiq və inandırma üsullarını artıq işə salıb - özü də Azərbaycana qarşılıq heç nə vəd eləmədən, Qarabağ məsələsinin ədalətli həllinə kömək söz vermədən. Əsas təhlükə də bax, budur.

❑ **Analitik xidmət**

# SOCAR-ın payından 17 faizi Avropa şirkətləri qoparmaq istəyir

### Bunun Avropa Komissiyasının tələbi olduğu bildirilir

**Hollandiya, Belçika və İtaliya şirkətləri Yunanıstanın qaz kəmərləri sisteminin operatoru olan DESFA şirkətinin səhmlərinin 17 faizinə iddia edir.**

Virtualaz.org saytı xəbər verir ki, bu haqda "Te Nea" adlı yunan qəzeti yazıb. Söhbət SOCAR-ın bu şirkətdən aldığı səhm paketinin 17 faizindən gedir.

İddiaçılar arasında Belçikanın "Fluxys", Hollandiyanın "Gasunie", habelə İtaliyanın "İnfrastrutture Trasporto Gas" və "Snam Rete Gas" şirkətləri var.

SOCAR tenderdə qalib gələrək DESFA şirkətinin səhmlərinin 66 faizini 400 milyon avroya 2013-cü ildə alıb. Azərbaycanın dövlət neft şirkətinin maliyyə durumu bərbad olan yunan qaz kəmərləri operatorunun səhmlərinin üçdə ikisini almaqda məqsəd Cənub Qaz Dəhlizi ilə Yunanıstan üzərindən qaz nəqlində əlverişli mövqelərə malik olmaq idi.

Lakin Avropa Komissiyası hələ sövdələşməni təsdiqləməyib. Üstəlik, Yunanıstanda hökumət dəyişəndən sonra Afina şirkətin üçdə ikisinin SOCAR-a satışına qarşı çıxmağa başlayıb. Yunanıstan hökuməti bildirir ki, DESFA-nın səhmlərinin ancaq 49 faizini SOCAR-a satmağa hazırdır.

Bu isə SOCAR üçün tamamilə qeyri-sərfəlidir. Çünki DESFA şirkətini almaqda məqsəd təkcə Yunanıstanın energetika sektoruna investisiya qoymaq deyildi. İnvestisiya baxımından bu şirkəti almaq əslində də cəlbedici perspektivlər vəd etmir.

SOCAR üçün məsələ daha çox siyasidir və şirkət nəzarət səhm paketini əldə edərək Cənub Qaz Dəhlizində öz mövqelərini möhkəmləndirmək istəyir. Avropa Komissiyası isə hesab edir ki, DESFA-nın səhmlərinin üçdə ikisinin SOCAR-a satılması antiinhisar qaydalarının pozulmasına gətirib çıxaracaq. SOCAR Yunanıstan qaz bazarında inhisarçı mövqelər əldə edəcək.

Beləliklə, məsələ dalana dirənib və bugünlərdə Yunanıstanın enerji naziri Panos Skurletislə "SOCAR Energy Greece" şirkətinin rəhbəri Anar Məmmədov arasında görüşdə Azərbaycan şirkətinin DESFA-dakı payının 66 faizdən 49 faizə salınması müzakirə olunub. Qalan 17 faizi isə Avropa şirkətlərinə satmaq nəzərdə tutulur.

Bildirilir ki, bu, Avropa Komissiyasının tələbidir. Brüssel bildirir ki, şirkətin nəzarət səhm paketi Avropa İttifaqına üzv olmayan ölkəyə keçə bilməz. Gözlənilir ki, DESFA-nın 17 faizlik səhminin potensial alıcıları ilə SOCAR və Afina arasında danışıqlar yaxın həftələrdə başlayacaq.

# "İqtidarın barmağı" və az mandat uğrunda mübarizə



Xalid KAZIMLI

**Bizdə qaydadır, hansısa partiyanın daxilində qarşıdurma olsa, o saat hamı "iqtidarın barmağı"ndan şübhələnir. Həmişə çəkişən, partiya daxilində üstünlük qazanmağa çalışan tərəflərin hər ikisi bir-birini "iqtidara işləmək"də, "hakimiyyətdən sifariş alaraq partiyanı dağıtmaq"da ittiham edirlər.**

Bu zaman qarşılıqlı ittihamlar o qədər şiddətlənir, sular o qədər bulanır ki, ictimaiyyət kimin düz dediyini dərhal kəsdirə bilmir.

İllərdir ki, belədir. İllərdir, hamı "iqtidarın barmağı" amilindən danışır. Bu, artıq bir az da mistikləşib.

Ancaq reallıq bundan ibarətdir ki, doğrudan da parçalanan, daxili təlatümlərə məruz qalan partiyalar çox vaxt "iqtidarın barmağı"nın fəaliyyəti nəticəsində bu günə düşürlər.

Hakimiyyət başbilənləri və sözçüləri bunu qəbahət saymırlar, etiraf etməsələr də, hansısa partiyanın daxilinin qarışdırılmasındakı rollarını qətiyyətlə inkar da etmirlər.

Onların izahatları da var: siyasi mübarizədir, hər bir qüvvə istəyər ki, öz rəqibini zəiflətsin, seçicilərin gözündən salsın, seçkilərdə məğlub eləsin, öz iqtidarının uzunömürlü olmasını təmin etsin.

Burada əlbəttə ki, bu iş üçün dövlətin siyasi, inzibati, maddi resurslarından nə qədər istifadə olunub, "iqtidarın barmağı"nın rolu nə dərəcədə həlledicidir - bu barədə susurlar.

Budur, ötən ilin sonu, bu ilin əvvəlində ölkənin ən böyük müxalifət partiyasında - Müsavatda başlayan və partiyanın itkiləri ilə nəticələnən təlatümün, ixtilafın biri də AXCP-də əmələ gəlib.

Müsavatçıların qovğasında da tam əksəriyyət "iqtidarın barmağı"ndan şübhələnirdi. Hətta bunu əminliklə bəyan edənlər, hər kəsi buna inandırmağa çalışanlar da vardı.

Ən neytral adamlar belə düşünürdü ki, ortada nəsə bir şey var, olmasa, bu işlərin heç biri baş verməz.

Söz yox, iqtidar düşərgəsi Müsavatın parçalanmasında, zəifləməsində çox maraqlı idi və əlindən gəldiyi qədər partiya daxilindəki yanar ocağa çır-çırpı, benzin atırdı.

Ancaq üstündən 10 aya yaxın vaxt keçdikdən sonra yeni-yeni məlum olur ki, Müsavatdakı tərəflərin heç biri iqtidar tərəfindən təlimatlandırılmır, heç bir gizli bağlılıq da yoxdur.

Əgər elə bir şey olsaydı, bunun davamı, daha ciddi nəticələri olardı. Əksinə, iqtidarla əməkdaşlıqda ittiham olunan əsas tərəfin liderləri hakimiyyət tərəfindən sanksiyaya məruz qaldılar.

İndi Razi Nurullayevin başçılıq etdiyi narazı cəbhəçilər AXCP daxilində ixtilaf tərəfinə çevriliblər. Yenə hamının ağlına "iqtidarın barmağı" versiyası gəlir və bu səbəbsiz deyil.

Hər kəs bilir ki, mövcud iqtidar komandası hakimiyyətə iddia edən bütün qüvvələri sevmədiyi kimi AXCP-ni də daima əzməyə, bölməyə, yox etməyə çalışır və bu istiqamətdə əlindən gələn hər şeyi edir.

Ancaq bu, Nurullayevin və komandasının "iqtidardan aldığı təlimat" əsasında hərəkətə keçməsi anlamına gəlmir.

Bu addım şəxsi təşəbbüslə də bağlı ola bilər. Məlum, seçki ilidir, siyasi arenanın oyunçularının fərqlənmək, nəsə əldə etmək üçün müxtəlif taktikalar seçməsi, manevrlər etməsi mümkündür.

Əsas məsələ odur ki, bu durumu uzun illər siyasətdə hökm sürən YAP monopoliyası yaradıb. Hakim partiyanın seçki illərində nümayiş etdirdiyi mənfi səciyyəli maksimalistlik ona gətirib çıxarıb ki, siyasi qüvvələr çox mandat uğrunda mübarizəni bir kənara buraxıb az mandat uğrunda mübarizəyə başlayıblar.

AXCP-nin indi üzləşdiyi durum 1995-ci, 2000-ci ilin seçki mühitini xatırladır. O vaxt muxtar və mobil siyasi qüvvə olaraq yeni-yeni siyasi arenaya qədəm qoyan "Yurd" birləşməsi özünü iqtidara "islahatçılar", "yaxşı oğlanlar" kimi təqdim edərək, ənənəvi müxalifətçilərin başı üzərindən mandat almış, parlamentdə oturmuşdular. O vaxt onlar bunu əl altından, gizli və separat şəkildə etməyə müvəffəq olmuşdular.

Razi Nurullayevin hazırkı deмarşı bir az da Qüdrət Həsənquliyevin başçılıq etdiyi qrupun (sonradan BAXCP adını daşıyan partiyanın) AXCP-dən dava-dalaşla qopması prosesini xatırladır. O vaxt Q.Həsənquliyev də AXCP adına iddialı idi, sonradan bu adın önünə B ilə başlayan bir söz artırıldı.

Hələlik ortalıq qarışıqdır. Bir müddətdən sonra hakimiyyətin Nurullayev və onun komandasına gerçəkdən dəstək verib-vermədiyi üzə çıxacaq.

Seçki ilində bu kimi haqq-hesablar qətiyyən təəccüblü deyil.

YENİ MÜSAVAT
N 182 (6210) 20 avqust 2015

# Hakimiyyət xarici medianın qəzəbindən qoruna bilərmi...

**Azərbaycan hakimiyyəti vaxtaşırı Qərb mətbuatının hədəfinə çevrilir. Yüksək tirajlı, reytinqli media orqanları Azərbaycandakı söz azadlığı, demokratiya problemləri, eləcə də korrupsiya faktlarını tirajlayır. Bu fakt isə Azərbaycan hakimiyyəti, onun mediası tərəfindən qıcıqla qarşılanır. Hökumət mediası səviyyəsində verilən cavablar, hazırlanan reportajları nəzərə alanda məlum olur ki, məqalələr iqtidar dairələrində ciddi narazılıq yaradır.**

## Mehman Əliyev: "Qərb qəzetlərində və ya kanallarında sifarişli, reklam xarakterli materiallar, məqalələr yayımlana bilər"

Maraqlıdır, hakimiyyət niyə Qərb mediası ilə anlaşmaq, bu və digər üsullarla onlardan gələn hücumları zərərsizləşdirə bilmir? Bu, həmin media orqanlarında yer alıb, orada Azərbaycan barədə reklam yazılarının yerləşdirilməsi də ola bilər, digər variantlar da. Şübhəsizdir ki, bəzi dünya miqyaslı telekanallarda Azərbaycanla bağlı reklam süjetləri, bəzən verilişlər yayımlanır. Bunu çap mediası üzərindən təkrarlamaq mümkün deyilmi?

İlkin rəylər bundan ibarətdir ki, bu məsələdə Qərb mətbuatının inzibati və maliyyə baxımından heç kəsdən asılı olmaması önəmli rol oynayır. Azərbaycan mediasından fərqli olaraq Qərb mətbuatının yaşamaq, reklam azlığı, satış... kimi problemləri yoxdur. Unutmayaq ki, hakimiyyətin Qərbdəki bəzi lobbi qrupları KİV-lərdə Azərbaycan haqqında bir neçə müsbət məzmunlu materiallar yerləşdirir. Amma bu, reklam əsasları ilə olur və Qərb cəmiyyətlərində belə materiallar ciddi qarşılanmır, ölkə barədə müsbət təəssürat yaratmağa kifayət etmir.

Buna səbəb isə Qərbdə hətta hakimiyyətlərin belə mətbuatla hesablaşmasıdır. Bu cür demokratik ölkələrdə mətbuat "dördüncü hakimiyyət" kimi çox ciddi təsir gücünə sahibdir. Ona görə də belə ölkələrdə mətbuatla anlaşma qətiyyən mümkün deyil.

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev hesab edir ki, xarici mətbuatı ümumiyyətlə ələ almaq mümkün deyil. Onun sözlərinə görə, Qərb qəzetlərində və ya kanallarında sifarişli, reklam xarakterli materiallar, məqalələr yayımlana bilər:** "Bunu da hökumət dəfələrlə edib. Məsələn, CNN-də



Azərbaycanın təbliğatı ilə bağlı bir veriliş yayımlanır, sonra hakimiyyət onu yayır. Amma o veriliş yayımlananda da həmin kanalda qeyd edilir ki, bu, reklam xarakterlidir. Həmin kanalın, qəzetin redaksiyasında Azərbaycanla bağlı yazı yazmaq istəsələr də, bunu edəcəklər. Azad media həm də onunla fərqlənir ki, onun oxucusu var və onu itirmək istəmir. Avtoritar rejimin sifarişi ilə yazı yazsa, reklamı da, tirajı da, oxucusu da azalar".

**Müsahibimizin sözlərinə görə, Qərb mətbuatı bu məsələlərə ciddi yanaşır. Oxucunun tələbatını, səviyyəsini ölçərək işləyən media üçün belə məsələlər yolverilməzdir:** "Gerçək media nüfuzunu qoruyur, onu müdafiə edir. Media əqidəsini bir-iki dəfə satsa, sabah oxucu ondan üz döndərəcək. Onun Mətbuat Şurası da, məhkəməsi də ictimaiyyətdir. Belə yazılara, məqalələrə görə sabah nüfuzunu itirsə, heç Azərbaycan hakimiyyəti üçün də lazım olmayacaq".

❑ **Sevinc TELMANQIZI**

# "Hökm də ittiham aktının təkrarı olacaq"

## Bu gün prokurorun Xədicə İsmayıla cəza istəyəcəyi gözlənilir

**Avqustun 19-da Ağır Cinayətlər Məhkəməsində araşdırmaçı jurnalist Xədicə İsmayılın məhkəməsi davam etdi. Proses X.İsmayılın zərərçəkmiş Tural Mustafayevla bağlı psixoloji ekspertiza rəyinin məhkəmədə elan olunmasına dair vəsatəti ilə başladı.**

Təqsirləndirilən şəxs bildirdi ki, həbs olunduğu gün müstəntiq ona həmin sənədi göstərib, sənəddə Tural Mustafayevin 2 ildir ki, psixoloji probleminin olduğu qeyd olunub: "Proses zamanı həmin sənədi tapa bilmədilər, hakim bildirdi ki, sənəd tapılıb elan olunacaq. Biz istintaq qarşısında vəsatət qaldırmışdıq ki, ekspertiza keçirən ekspertlər bizimlə razılaşdırılsın. Həmin ekspertlər qarşısında bizim də suallarımız qoyulsun. Vəsatətimiz qismən təmin olunmuşdu. Ekspert bizimlə razılaşdırıldı, amma suallarımız qoyulmadı. Nəticədə bəlli oldu ki, aldadılmışıq, 3 ekspert rəy verib, onlardan yalnız biri bizimlə razılaşdırılıb. Prosessual Məcəlləyə görə, 10 gün ərzində ekspertin rəyi təqsirləndirilən şəxsə təqdim edilməlidir. Dekabrda verilmiş rəy mənə fevralda təqdim olunub. Bu, qanunun kobud şəkildə pozulmasıdır. Əgər həmin qanun pozuntusunu sübut kimi qəbul edirsinizsə, buyurun, davam edin".



Daha sonra müdafiə tərəfi vəsatət verdi. Aktı hazırlayan 4 nəfər ekspertin - Bakı Vergilər Departamentinin Dövlət Vergi müfəttişləri İmran Nurməmmədov, Elçin Əliyev və Məhkəmə Ekspertiza Mərkəzinin nümayəndələri Emin Məmmədli və Zaur Məmmədovun məhkəmədə şahid qismində dindirilməsi xahiş edildi.

**Xədicə İsmayıl vəsatətə münasibət bildirdi:** "Görünür ki, haqqımda nəsə yazılmalı idi və onlar da yazıblar. Heç bir fakta əsaslanmayıblar, orada yazılanlar tamamilə uydurmadır. Mən nəinki nümayəndəliyin rəhbəri olmuşam, heç onlarla əlaqəm olmayıb. Mən Bakı Bürosunun rəhbəri olmuşam. Bakı Bürosu isə Azərbaycan nümayəndəliyi deyil. Bu sadə faktı bilmək üçün heç universitet oxumaq lazım deyil, elə 3 sinif oxumaq kifayətdir. İnanmıram ki, Vergilər Nazirliyinin əməkdaşları elə savadsız olsunlar ki, bunu başa düşməsinlər. Bilirəm ki, siyasi sifariş verilib deyə belə yazmağa məcbur olublar. Biz burada qatığın ağ olduğunu sübut etməyə çalışırıq. Təəssüf ki, məhkəmə prokurorluğun fikirlərini təkrarlamaq vərdişindən əl çəkmək istəmir. Güman edirəm ki, hökm də ittiham aktının təkrarı olacaq. Biz əslində burada məhkəməyə nəsə sübut etmək istəmirik. Sadəcə, özümüz üçün 2 məsələni aydınlaşdırmaq istəyirik. Birinci, məhkəmənin araşdırmaya kifayət qədər imkan tanıyıb tanımaması məsələsini; ikinci, Vergilər Nazirliyi və prokurorluq da daxil olmaqla, bütövlükdə hökumətin bu qərəzdə iştirakı. O ki qaldı aktı tərtib edənlərlə bağlı vəsatətə, mən sadəcə o aktı tərtib edənlərin üzünə baxmaq istəyirəm".

**Xədicə İsmayıl qeyd etdi ki, ona verilən 5 maddənin 4-ü AzadlıqRadiosu ilə bağlıdır, maliyyə məsələlərinə məsuliyyət daşımadığı halda ehtimal olunan pozuntularla bağlı ekspertlər tərəfindən rəylər verilib:** "Artıq 8 aydır ki, Azərbaycan Respublikası Baş Prokurorluğunun və Vergilər Nazirliyinin qanunsuz hesab etdiyimiz müdaxiləsi nəticəsində AzadlıqRadiosunun Azərbaycan nümayəndəliyinin fəaliyyəti iflic vəziyyətinə düşüb.

İstintaqın dedikləri həqiqət olsaydı belə, bu əmələ görə hər hansı şəxsi əmlakı talama cinayətində ittiham etmək məntiqsizdir, burada yalnız vergidən yayınmadan söhbət gedə bilərdi. Görünür, bu cür nəticə istintaq orqanlarının planlarına uyğun gəlmədiyindən Xədicə İsmayıla qarşı sanksiyası 12 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutan 179.3.2-ci maddə ilə ittiham irəli sürülüb".

Prokuror bütün vəsatətlərin əleyhinə çıxış etdi, yalnız aralıq aktı hazırlayan ekspertlərdən birinin dindirilməsinə etiraz etmədi.

Daha sonra məhkəmə heyəti vəsatətlərin müzakirəsi ilə bağlı müşavirəyə getdi. Yalnız aralıq aktını tərtib edən ekspertlərin dindirilməsi ilə bağlı vəsatət qismən təmin edildi. 4 ekspertdən ikisinin - Bakı Vergilər Departamenti əməkdaşlarının prosesə çağırılması qərarı verildi.

Fasilə bir saata qədər davam etdi. Fasilədən sonra bir vergi əməkdaşının dindirilməsinə start verildi. Lakin iş vaxtı bitdiyindən proses bu gün saat 11:00-a təxirə salındı.

Fariz Namazlı mətbuata açıqlamasında avqustun 20-də keçiriləcək prosesdə prokuror X.İsmayıla iş istəyə biləcəyini dedi.

❑ **Cavanşir ABBASLI**



## Şura sədri "Qarabağ" QHT Koalisiyasının üzvləri ilə görüşdü

**Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, millət vəkili Azay Quliyev "Qarabağ" QHT Koalisiyasına daxil olan qeyri-hökumət təşkilatlarının rəhbərləri ilə görüşdü. A.Quliyev görüşü açaraq bildirdi ki, Azərbaycan dövləti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün həm milli, həm də beynəlxalq müstəvidə öz fəaliyyətini gücləndirməkdə davam edir. Şura sədri vurğulamışdır ki, cənab Prezident İlham Əliyev QHT-lərə dövlət dəstəyinin əsas istiqamətlərini müəyyən edən zaman Dağlıq Qarabağ mövzusunu ən prioritet mövzu kimi təsdiq etmişdir: "Məhz bunun nəticəsidir ki, bu mövzuda QHT-lər indiyədək Şuranın yardımı ilə ümumi maliyyə dəyəri 2 milyon 100 min manatdan artıq olan 141 layihə icra ediblər".**

A.Quliyev bildirmişdir ki, şura beynəlxalq aləmdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyinin möhkəmləndirmək və Ermənistanın işğalçı mahiyyətini ifşa etmək məqsədilə xarici ölkə QHT-lərinə qrant müsabiqəsi elan etmiş və onların bu istiqamətdə layihə təkliflərini dəstəkləmişdir.

A.Quliyev şəhid ailələri və müharibə veteranlarının sosial qayğılarının həllinə ictimai dəstəyin daim gücləndirilməsində "Qarabağ" QHT Koalisiyasına daxil olan təşkilatların uğurlu fəaliyyətini vurğulayaraq demişdir ki, indiyə qədər bu yöndə QHT-lərin təklif etdiyi bütün layihələr şura tərəfindən dəstəklənmiş, heç bir təklif diqqətdən kənarda qalmamışdır. Azərbaycan hökumətinin şəhid ailələrinə, Qarabağ qazilərinə, onların ailələrinə diqqət və qayğısının təzahürü olan bu dəstəyin hər zaman davam edəcəyini söyləyən A.Quliyev "Qarabağ" QHT Koalisiyasının Resurs və İnformasiya Mərkəzinin yaradılması təklifinə şurada baxılacağını bildirdi.

Müzakirələrdə çıxış edən "Qarabağ" QHT Koalisiyasının sədri Vüqar Qədirov, QHT-rəhbərləri Əkbər Qoşalı, Emin Həsənli, Faiq İsmayılov, Mətanət Cəfərova, Nazim Əhmədli, Radə Abbas, Venera Əsgərova, Anar Xəlilov, Almaz Zeynallı, Rey Kərimoğlu, Təhmasib Novruzov, İradə Polad, Əkrəm Bəydəmirli, Ədalət Məhərrəmov, Şahin Qədirov, Etimad Əsədov, Naibə Behbudova, Füzuli Rzaquliyev və başqaları layihələrin icrası və nəticələri ilə bağlı öz fikir və təkliflərini irəli sürdülər.

Görüşdə "Qarabağ" QHT Koalisiyasının rəhbəri Vüqar Qədirov qurumun fəxri fərmanını Azay Quliyevə təqdim edərək şura sədrinə əməkdaşlıq və dəstək üçün təşəkkürünü bildirdi.

❑ **M.MAHRIZLI**

YENİ MÜSAVAT
N 182 (6210) 20 avqust 2015



# Neft bumu bitdimi - ekspertlərdən qorxulu proqnozlar

**Qubad İbadoğlu:** "Hətta qiymətlərin əvvəlki səviyyəsində belə ötən illərdə olan gəlirləri əldə etmək mümkün olmayacaq"

**İlham Şaban:** "Hökumətin "ağzından çıxan hər kəlmə" ajiotaja da səbəb ola bilər"

**"Neft gəlirlərinin formalaşmasına 3 əsas amil təsir göstərir: hasilat, qiymət və xərc. Azərbaycanda neft hasilatının piki 2010-cu ildə olub, o zaman 50,8 milyon ton rekord səviyyədə neft hasil olunub. Elə o zamandan da neft hasilatı aşağı düşməkdə davam edir. Ötən il 2010-cu illə müqayisədə 17,5 faiz və ya 8,8 milyon ton az, bütövlükdə 42 milyon ton neft istehsal edilib. Bu il hasilat aşağı düşməkdədir. Gözlənilir ki, bu il 2010-cu illə müqayisədə istehsalımızın 1/5-ni itirəcəyik".**

**İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu** bu fikirləri "Yeni Müsavat"ın suallarına cavabında bildirdi. Qeyd edək ki, bəzi müşahidəçilər neftin qiymətinin aşağı düşməsini şərh edərkən bunun keçici olduğunu və 2008-ci il qlobal böhranı zamanı yaşananların təkrarlanacağı barədə fikirlər yürüdürlər. Lakin əksini düşünənlər də var. Q.İbadoğlu deyir ki, neftin qiymətinin rolu xüsusi əhəmiyyət kəsb edir: "Məsələn, pik istehsal 2010-cu ildə olsa da, neft gəlirlərinin rekord səviyyəsi Azərbaycanda 2011-ci ildə qeydə alınıb. Çünki 2011-cu ildə qiymət səviyyəsi istehsaldan yüksək idi və istehsalda itkini qiymət hesabına nəinki bərpa etmək mümkün idi, hətta daha çox qazanmaq imkanı var idi. Hazırda isə qiymət həmin illərlə müqayisədə iki dəfədən çox aşağı düşüb". **İqtisadçı alimin fikrincə, xərc amili də gəlirlərə azaldıcı təsir göstərir:** "Son məlumatlara görə, hasilat xərcləri də artır. Belə olan halda hətta qiymətlərin əvvəlki səviyyəsində belə ötən illərdə olan gəlirləri əldə etmək mümkün olmayacaq. Ona görə də dövlət başçısı "neft unudun" deyəndə yalnız qiymətin ucuzlaşmasına deyil, həm də hasilatın azalmasına diqqəti çəkdi".

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban də hesab edir ki, neftin yüksək qiymətlər dövrü artıq arxada qalıb:** "2014-cü il 17 iyun tarixindən London birjasında neft qiymətlərinin enişi başlandı. O zaman ən yüksək hədd 117 dollar idi və İŞİD-in İraqdakı ilk 3 neft yatağını ələ keçirməsindən sonra yaranan ajiotajdan sonra neft qiymətlərinin 105 dollardan kəskin artımı ilə müşahidə olmuşdu. Ancaq sonrakı mərhələdə İŞİD üzü şimala və qərbə istiqamət götürdü. Əslində 2014-cü ildə neft qiymətlərinin enməsini BP və "Shell" şirkətləri 2013-cü ilin noyabr aylarında öz hesabatlarında qeyd etmişdilər və 2014-cü ilin ikinci yarısından dünya bazarında qiymətlərin düşməsinin bazar iştirakçılarına elə bir təəccübü olmadı. Sadəcə, təəccüblü olan düşmənin sürəti idi". **İ.Şaban qeyd etdi ki, indi proqnozlar yaxın 10 ilə verilir:** "Hələ ki heç bir proqnozda qiymətin 100 dolları keçəcəyi göstərilmir. Dünya Bankı 2025-ci il üçün 90 dollar göstərir. Ancaq həmin ilin 90 dolları alıcılıq qiymətinə görə 2010-cu ilin qiymətlərindən 10% aşağı olacaq. 2020-ci il üçün isə qiymətlərin 79 dollar çivarında olması güman edilir". **Neftin qiymətinin bundan sonrakı dönəmlərdə nə səbəbə artmayacağına gəldikdə, İ.Şaban bunları bildirdi:** "Bu sualın əslində cavabı ondadır ki, 2002-2014-cü illərdə neftin 100-113 dollar arasındakı qiyməti köpükdən yararlanıb və real qiyməti 25%-dək üstələyib. İndi həmin köpüyün fəsadlarının aradan qaldırılması prosesi gedir, vəssalam".

**Qiymətin enməsinə rəğmən hökumətin nikbin açıqlamalarının səbəblərini şərh edən ekspert bunu təbii saydı:** "Hökumət müxalifətdən fərqli olaraq çıxışlarında həmişə məsələlərə münasibətində soyuqqanlı olur. Bu da başa düşüləndir. Çünki cəmiyyətin gözü qarşısında iqtidardır və onun "ağzından çıxan hər kəlmə" ajiotaja da səbəb ola bilər, istənilən hökumətin rolu isə stabilləşdirici faktorlara söykənir. Ancaq belə məsələlər elə aparılmalıdır ki, cəmiyyətin hökumətə inamı da olsun".

**Maraqlıdır, Azərbaycan hansısa ciddi krizislə üzləşərsə, xaricdə aldığı mülkləri sata, vəsaitləri ölkə iqtisadiyyatına yatıra bilərmi? İ.Şaban:** "Neft Fondu 800 mln. dollarlıq mulklər almışdı, təbii ki, nə vaxt istəsə, sata bilər. Eləcə də qızıl külçələrini. Ancaq baha aldığı şeyi ucuz satmağın nə mənası? Ona görə də bu aktivlərin yaxın "beşillikdə" təkrar bazara çıxarılması perspektivlərini görmürəm. Həm də Neft Fondu o aktivləri uzunmüddətli aktivlər kimi əldə etdiyini açıqlayıb - yeni özünün investisiya portfelini diversifikasiya etmək siyasəti yürütdüyü üçün 2012-ci ildən başlayaraq belə addımlar atırdı. Ancaq uzaqgörən təhlilçilər bilirdilər ki, neftin bahalı qiymətində həm daşınmaz əmlak, həm də qiymətli metallar bahalı olur".

❑ **Cavid TURAN**

# Mərkəzi Bankdan kiçik banklara "məsuliyyətli zərbə"

**Samir Əliyev:** "Əhalinin istehlak kreditlərinə əlçatanlığı azalacaq"




**"Mərkəzi Bankın banklarda xərclərin optimallaşdırılması, maliyyə resurslarının maya dəyərinin azaldılması, korporativ sosial məsuliyyətin artırılmasına yönəlik son qərarı əslində gələcəkdə problemli kreditlərin yaranmasını önləmək və istehlak kreditləşməsini məhdudlaşdırmaq məqsədi daşıyır". Bunu iqtisadçı ekspert Samir Əliyev sözügedən qərara münasibət bildirərkən deyib.**

Onun sözlərinə görə, dünyada geniş yayılmış PTİ *(payment -to-income)* sisteminin tətbiqi banklara kredit riskini düzgün idarəetməyə sövq etməklə yanaşı, ölkədə kredit qoyuluşunu əhəmiyyətli dərəcədə məhdudlaşdıracaq: "Mərkəzi Bankın İdarə Heyətinin 13 avqust 2015-ci il tarixli iclasında qəbul edilmiş "Banklarda və bank olmayan kredit təşkilatlarında məsuliyyətli kreditləşmə haqqında Metodoloji Rəhbərlik" istehlakçıların aylıq borc yükünün onların gəlirlərinə uyğunluğunun müəyyənləşdirilməsini nəzərdə tutur. Əvvəllər kredit götürmək istəyən müştəridən ancaq maliyyə vəziyyətini təsdiq edən sənəd tələb olunurdu və kreditin məbləği barədə bank müstəqil qərar verirdi. Ancaq indi ayrılacaq kreditin məbləği müştərinin gəlirlərindən birbaşa asılı olacaq və bank onu istədiyi qədər artıra bilməyəcək. Belə ki, kredit 2 mərhələdə qiymətləndiriləcək. Əvvəlcə istehlakçının ödəmə qabiliyyəti, sonra isə kredit məhsulunun təyinatına uyğunluğu yoxlanacaq. Ödəmə qabiliyyətinin qiymətləndirilməsi zamanı BYG əmsalından, aylıq borc yükünün gəlirə nisbəti istifadə olunacaq. Bu əmsal hesablanarkən sizin hər ay ödədiyiniz və ödəməyə hazırlaşdığınız borc yükü toplanaraq aylıq gəlirinizə bölünəcək".

**Ekspert fikrini detallarla əsaslandırıb:** "Məsələn, fərz edək ki, aylıq qazancınız 400 manatdır. Hazırda hansısa banka hər 100 manat kredit ödəyirsiniz. Yeni kredit xətti açmaq istəyirsiniz və banka müraciət etmisiniz. İstədiyiniz məbləğin aylıq ödənişi isə təxminən 120 manat edir. Bu halda BYG əmsalı *(100 AZN +120 AZN)*/400 AZN x100% = 55% olacaq. Belə vəziyyətdə sizə istədiyiniz məbləğ verilməyəcək. Sizin kredit ala bilməniz üçün BYG əmsalı 50%-dən aşağı olmalıdır. Yəni bu əmsal nə qədər aşağı olsa bir o qədər şansınız artacaq. Deməli, indiki gəlirlər sizin aylıq ödənişin ən çoxu 100 AZN olan həcmdə, bu halda BYG 50 faiz olur,- kredit götürə bilərsiniz. Bu əmsal bütün dünyada PTİ, payment -to-income əmsalı adı ilə tanınır. Qaydada diqqəti çəkən məqamlardan biri də BYG müəyyənləşdirilərkən kredit xətləri və kredit müqaviləsində aylıq ödənişi nəzərdə tutulmayan kreditlər üçün annuitet qaydasında aylıq ödənişin hesablanmasıdır. Belə çıxır ki, kredit kart sahibi kredit üçün banka müraciət edəndə BHG hesablananda kredit kartındakı məbləğ nəzərə alınacaq".

**S.Əliyevin sözlərinə görə, yeni mexanizm kredit bazarına, bankların fəaliyyətinə, istehlakçıların kreditə əlçatanlığına təsir göstərək:** "Əsas zərbə istehlak kreditləşməsi bazarına dəyəcək. Qərar əslində Mərkəzi Bankın hazırda 38 faiz paya malik olan istehlak kreditlərini məhdudlaşdırmaq planının tərkib hissəsidir. Bu, ilk addım deyil. Buna qədər bir sıra addımlar atılıb- pərakəndə ticarət obyektlərindən kredit verilişinin yığışdırılıb, arayış olmadan kredit verilməsi qadağan edilib və sair. İstehlak kreditlərinin həcminin getdikcə azalmasını müşahidə edəcəyik.

Əhaliyə təsirinə gəlincə, əhalinin istehlak kreditlərinə əlçatanlığı azalacaq. Müştərini bir neçə bankın müştərisi olmaq imkanı məhdudlaşacaq. Artıq kredit bataqlığına düşməyəcəklər.

Banklara təsiri isə istehlak kreditləşməsi üzrə ixtisaslaşan bankların fəaliyyətinin məhdudlaşması, gəlirlərinin kəskin azalması olacaq. Bankları istehlak kreditləşməsi bazarını tərk edərək real sektoru maliyyələşdirməyə sövq edəcək. İstehlak kreditləri "mikrokreditləşəcək", yəni mikrokredit adı altında istehlak kreditləşməsi aparılacaq. Son zamanlar məhdudlaşan müştəri kontingenti daha da məhdudlaşacaq".

**Ekspertin sözlərinə görə, Mərkəzi Bankın son addımları strateji baxımdan bank sektorunun dayanıqlığının artırılmasına yönəlsə də, indiki dövrdə banklar üçün başağrısı yaradacaq:** "Kiçik və istehlak kreditləşməsi üzrə ixtisaslaşan bankların faiz gəlirləri azalacaq. Müştəri, xüsusilə də yüksək gəliri olan və bu gəliri rəsmi sübut edə bilən şəxslər uğrunda sərt rəqabət aparılacaq. Bütün bunların fonunda rəsmən elan edildiyi kimi, kredit faizlərinin azalması baş verməyəcək. Bazar hələ də Mərkəzi Bankın tətbiq etdiyi faiz tavanına, 29 faizlik həddə tam adaptasiya oluna bilməyib. Üstəgəl, kredit məbləğinin azalması banklara faizləri azaltmağa imkan verməyəcək. Bu qərarın əsas üstünlüyü gələcəkdə problemli kreditlərin yaranması ehtimalını azalacaq. Ancaq nəzərə almaq lazımdır ki, problemli kreditlərdə əsas üstünlüyü biznes kreditləri təşkil edir və bu kredit məhsulu yeni qaydanın hüquqi təsirinə düşmür".

❑ **RÖYA**

# Seçkiyə qədər manat yenə "öləcəkmi"?

**Dünya bazarında neftin qiymətinin daha da aşağı düşməsi manatın yenidən devalvasiyası mövzusunu gündəmə gətirib. Ancaq bunun əksini düşünənlər də var. İqtisadçı ekspert Azər Mehtiyev seçkiyə qədər manatın məzənnəsində hansısa bir ciddi dəyişikliyin olmayacağını bildirdi: "Manatın taleyi daha çox neftin dünya bazarında qiymətindən asılıdır. Yəni Azərbaycanda manatın möhkəmliyi ölkədə olan dollar ehtiyatının həcmindən asılıdır.**

Hökumət ən azı seçkiyə qədər manatın məzənnəsinə hər hansısa bir dəyişikliyə yol verilməsini istəmir. İndiki məzənnəni saxlamağa və sadəcə olaraq bu məzənnə ətrafında müəyyən qədər hərəkət ola bilər. Belə deyək ki, sadəcə olaraq son dövrdə baş verən cüzi dəyişikliklər ola bilər. Ancaq seçkidən sonrakı hadisə və proseslər təbii ki, seçkinin necə nəticələnəcəyindən, siyasi proseslərin necə gedəcəyindən asılı olacaq. Eyni zamanda neftin qiymətinin aşağı düşmə səviyyəsinin davam etməsindən asılı olaraq baş verə bilər. Bu baxımdan ən azı hökumət seçkinin nəticələri elan olunana qədər manatın məzənnəsinin sabit, indiki vəziyyətində saxlanmasında maraqlı olacaq. Hər hansısa bir ciddi dəyişiklik olacağını düşünmürəm".

**Digər iqtisadçı ekspert Vüqar Bayramov manatın yeni devalvasiyasına zəmin olduğunu dedi:** "Manatın məzənnəsindəki dəyişikliklər birmənalı şəkildə Mərkəzi Bank tərəfindən müəyyənləşdirilir. Bu baxımdan praktiki olaraq bazarın manatın məzənnəsinə təsir imkanları yoxdur. Mərkəzi Bank valyuta ehtiyatlarının həcmini və neftin qiymətini əsas faktor kimi göstərir. Hazırda manatın yeni devalvasiyasına zəmin var. Manatın yeni devalvasiyası bank sektoruna, eləcə də özəl biznesə mənfi təsir göstərə bilər. Nəzərə alsaq ki, manatın yeni devalvasiyası artıq bir sıra bankların öz kreditlərini geri almağında ciddi çətinliklər yarada bilər. Eyni zamanda ölkəyə idxal olunan məhsulların qiymətlərində artımlar müşahidə edilə bilər. Çünki devalvasiya baş verəcəyi halda idxal məhsullarının xərcləri artacaq. Bu da təbii ki, ölkə daxilində idxal olunan məhsulların qiymətlərində artımlara səbəb ola bilər. Mərkəzi Bank çalışır ki, devalvasiyaya getməsin. Amma devalvasiya ilə bağlı qərarı avqust və sentyabr ayının yekunlarında iki əsas faktor müəyyənləşdirəcək. Birincisi, avqust və sentyabr aylarında Mərkəzi Bankın valyuta ehtiyatları necə dəyişəcək və Mərkəzi Bank borclanma hesabına öz valyuta ehtiyatlarındakı mövcud vəziyyəti qoruyub saxlayacaqmı? Mərkəzi Bankda valyuta azalmaları və buna uyğun olaraq neftin dünya bazarındakı qiymətində azalmalar olarsa, Mərkəzi Bank devalvasiyaya gedəcək. Əgər Mərkəzi Bank valyuta ehtiyatlarını daxili və ya xarici borcların hesabına saxlaya bilərsə və neftin qiymətində müəyyən stabilləşmə olarsa, bu, Mərkəzi Banka müəyyən mənada rahat nəfəs almağa imkan verəcək. Amma reallıq budur ki, hələlik dünya bazarında neftin qiyməti aşağı düşür. Mərkəzi Bank hələ ötən ilin sonunda rəsmi açıqlamasında bildirib ki, neftin dünya bazarında qiyməti 40 dollardan aşağı düşərsə, o zaman bu səviyyə balansında mənfi tablonun yaranmasına və ölkəyə daxil olan vəsaitin ölkədən çıxan vəsaitdən az olmasına səbəb olacaqsa, bu da valyuta qıtlığına, xarici valyutanın manata təsirini artıracaq. Bu baxımdan manatın məzənnəsi ilə bağlı qərar birmənalı şəkildə sözügedən iki faktordan asılı olacaq. Ehtiyatlarla bağlı Mərkəzi Bankın çətinliyi varsa, neftin dünya bazarındakı qiymətində azalmalar davam edərsə, o zaman yenidən manatın xarici valyutaya nisbətən məzənnəsini itirməsi istisna edilmir. Güman olunur ki, bu halda Mərkəzi Bank intermensiya yolu ilə manata olan tələbi qarşılamaqda çətinlik çəkəcək".



**Azər Mehdiyev: "Hökumət seçkiyə qədər manatın məzənnəsində hər hansı bir dəyişikliyə yol verilməsini istəmir"**



**"Vüqar Bayramov: "Hazırda manatın yeni devalvasiyasına zəmin var"**

**Ekspert vətəndaşlara pullarını səbət formasında saxlamağı tövsiyə etdiyini etdi:** "Biz devalvasiyadan öncə də təklif etdik ki, vətəndaşlar öz pullarını səbət formasında saxlasınlar. Çünki valyuta səbəti istənilən devalvasiyada, hətta milli valyutanın möhkəmlənməsindən dəyən təsirləri praktiki olaraq azaldır. İndiki məqamda daha məqsədəuyğundur ki, vətəndaşlarımız pulun 60 faizini dollar formasında, 20 faizini avroda, 20 faizini də manatda saxlasınlar. Yəni əgər vətəndaşın 10 min manat pulu varsa, onun 6 min manatını dollara, 2 min manatını avroya, 2 manatını isə xərcləmək üçün manatda saxlasın. Valyuta səbəti bütün riskləri azaldır".

❑ **Günel MANAFLI**

# Ərzağın növbəti bahalaşma dalğası gəldi

## Natiq Cəfərli: "Bahalaşma tendensiyası davam edəcək"

**Dünəndən etibarən paytaxtda ərzaq məhsullarının qiymətinin əhəmiyyətli dərəcədə qalxması narahatlıq doğurub. Xüsusən də yerli şirkətlər tərəfindən istehsal olunan məhsulların qiymətlərinin birdən-birə 35 faizədək artırılması əhalidə çaşqınlıq yaradıb.**

Bəs görəsən, yeni bahalaşmaya səbəb nədir və bu tendensiya nə qədər davam edəcək?

**İqtisadçı ekspert Natiq Cəfərliyə** görə, bahalaşma əslində gözlənilən olub: "Azərbaycanda baş verən devalvasiyadan sonra hökumət cidd-cəhdlə, inzibati yolla məhsulların qiymətini aşağı səviyyədə saxlamağa çalışdı. Bunun üçün xüsusi yoxlamalar keçirildi, kiçik sahibkarların üzərinə basqılar oldu ki, qiymətlər çox da qaldırılmasın. Bir müddət bu tendensiyanı saxlamaq mümkün oldu. Lakin təbii ki, bu çox da davam edə bilməzdi və bunu hökumət nümayəndələrinin özləri də yaxşı anlayırdılar. Beləliklə, biznesin dözüm həddi sona çatmağa, anbarlardakı əvvəlcədən alınan məhsullar tükənməyə doğru getdi və sahibkarlar ölkəyə gətirilən məhsulları yeni qiymətlərlə satışa çıxartmağa başladılar".



Natiq Cəfərli

**İqtisadçı qeyd etdi ki, bahalaşma tendensiyası bundan sonra da davam edəcək:** "Bahalaşmanın davamlı olacağı gözlənilir. Bahalaşma ərzaq, məişət texnikası, geyimlər və digər məhsulların qiymətlərində daha çox müşahidə olunacaq. Təbii ki, əvvəlcədən bunun qarşısını alacaq yollar var idi. Əgər hökumət qiymətlərin bu qədər qalxmasını istəmirdisə, vergi məsələlərində müəyyən güzəştlər edə bilərdi. Lakin bunu etmədi və etməkdə də çətinlik çəkir. Çünki ölkənin gəlirləri onsuz da xeyli dərəcədə azalıb və vergilərin güzəşt edilməsi gündəmdə deyil. Bunun başqa bir yolu da sahibkarlıqla bağlı korrupsiyanın azalması olmalı idi və təəssüf ki, bu da baş vermir. Belə ki, dövlət orqanları geniş şəkildə biznesmenlərin işinə qanunsuz olaraq müdaxilələr edir, bu da korrupsiya ilə nəticələnir və sonda da gəlib qiymətlərin üzərində dayanır. Çünki biznesmen xərclədiyi vəsaitin geri dönməsini təmin etməlidir ki, bu da qiymətlərə yansıyır".

**Natiq Cəfərli bahalaşmada inhisarçılığın da xüsusi təsiri olduğunu deyib:** "Ölkədə inhisarçılıq çox yüksək həddədir. Xüsusən də ərzaq məhsullarının istehsalı ilə məşğul olan yerli şirkətlərin sayı azdır. Bu da monopoliya yaradır və şirkətlər istənilən fürsətdən istifadə edib məhsulların qiymətlərinin artmasına maraq göstərirlər. İnhisarçılığın qarşısı alınarsa, qiymət artımı da azalar. Hökumət bu baxımdan daha ciddi tədbirlər görməlidir".

❑ **Xalidə GƏRAY**

# "Riyad-farm" niyə bağlandı? - şok təfərrüatlar

## Baş mühasib: "Dərman idxalı dayanıb və bütün apteklər bağlanıb"

**Son zamanlar mediada "Riyad-farm" dərman şirkəti haqqında qarışıq, çaşdırıcı məlumatlar yayılır. "Riyad-farm" MMC-nin baş mühasibi yayılan məlumatlarla bağlı açıqlama verib.**




"Riyad-farm" MMC-nin baş mühasibi İbadət Məlikov azvision.az-a bildirib ki, Azərbaycan Beynəlxalq Bankına kredit borcları ilə əlaqədar şirkətin yüz faiz paylı təsisçisi və direktoru Aqil Quliyev və şirkətin real sahibi və idarəçisi Həsən Şərifov hüquq-mühafizə orqanları tərəfindən həbs ediliblər. İ. Məlikovun sözlərinə görə, mətbuatda gedən 200 milyon manat kredit borcu həqiqətə uyğun deyil: "Onların Azərbaycan Beynəlxalq Bankına akkreditiv üzrə kredit borcu 24 milyon manat təşkil edir. Əsasən də şirkətin iflas olmasına səbəb şirkətin sahibləri Həsən və Asif Şərifov qardaşlarının "Riyad-farm" şirkətinin gəlirlərini və banklardan götürdükləri kreditləri özlərinə məxsus kənd təsərrüfatı biznesinə *(3000 hektar meyvə bağları, soyuducu anbarlar, meyvə şirəsi və konsentratı zavodu və s.)*, Moskvadakı bizneslərinə yatırmaları və bu biznesdə uğursuzluqları səbəb olub. "Riyad-farm"ın mərkəzi ofisi və deposunun yerləşdiyi yerə görə 4 aylıq kirayə haqqı borcu yığışıb və işçilərin çoxuna 2 aylıq əmək haqqı borcları qalıb".

Baş müsahib onu da qeyd edib ki, hazırda şirkət fəaliyyətini dayandırıb.

"Dərman idxalı dayanıb və bütün apteklər bağlanıb. Mətbuatda yanlış olaraq "Riyad-farm"la "Riyad " şirkəti qarışıq salınır. 2007-ci ildən "Riyad-farm" şirkətinin bütün maliyyə təsərrüfat fəaliyyətinə rəhbərliyi direktor Aqil Quliyev, şirkətin real sahibləri Həsən və Asif Şərifov qardaşları həyata keçiriblər. Sadəcə olaraq, bu adda şirkətin əhali arasında inam qazanması səbəbindən ad dəyişdirilmədən "Riyad-farm" brend adı ilə fəaliyyətlərini davam etdirib və "Riyad-farm" dərman şirkəti "Riyad " şirkətinə məxsus Bakıxanovda yerləşən depo və mərkəzi ofisin icarəçisi olub. Hazırda "Riyad" şirkəti "Riyad-farm"ın rəhbərliyini dələduzluq, vəzifə saxtakarlığı, aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə əmlaka ziyan vurma və digər iddialarla iyun ayında məhkəməyə verib".

YENİ MÜSAVAT
N 182 (6210) 20 avqust 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Türkiyə və Azərbaycandan işğalçıya hava xəbərdarlığı

## Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 30-dan artıq aviasiya vasitəsinin iştirakı ilə hərbi təlimlər başlayır

**Avqustun 22-dən başlayaraq Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən, iki ölkənin Hərbi Hava Qüvvələrinin iştirakı ilə "TurAz Qartalı - 2015" taktiki təlimləri keçiriləcək. Bu barədə Müdafiə Nazirliyinin yaydığı məlumata görə, təlimlərdə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 30-dan artıq aviasiya vasitəsi iştirak edəcək.**



Buraya MiQ-29, F-16 qırıcı, Su-25 hücum, F-4E bombardmançı, C-130 Herkules hərbi-nəqliyyat təyyarələri, Mi-35 döyüş, Mi-17 və Sikorski UH-60 döyüş-nəqliyyat, Cougar AS532 axtarış-xilasetmə helikopterləri daxildir. Rəsmi məlumatda deyilir ki, təlimlərdə iki ölkənin Hərbi Hava Qüvvələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, o cümlədən havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqlar yerinə yetiriləcək.

Son illərdə Azərbaycan və Türkiyənin birgə hərbi təlimləri intensiv xarakter daşıyır və işğalçı Ermənistanı kifayət qədər narahat edir. Sözsüz ki, NATO dövləti olan Türkiyənin Azərbaycanla digər bütün sahələrdə olduğu kimi, hərbi sahədə də sıx əməkdaşlıq etməsi nəinki cırtdan Ermənistanı, hətta ona havadarlıq edən qüvvələri də rahatsız edir. Bu ərəfədə Rusiyanın Ermənistandakı hərbi bazasının da Ermənistanla birlikdə hərbi təlimlər keçirməsi də təsadüfə oxşamır. Yayılan məlumatlara görə, Rusiya ordusu növbəti dəfə yüksək döyüş hazırlığı vəziyyətinə gətirilib və bütün Qafqaz və Xəzər sahili boyu irimiqyaslı hərbi təlimlər keçirir. Cənub Hərbi Dairəsinin məlumatına görə, Ermənistanın Kamxud yüksək dağlıq təlim-məşq kompleksində pilotsuz təyyarələrlə manevrlərə artıq başlanıb. Həmçinin ölkənin cənubundakı Həştərxan vilayətində yerləşən Aşuluk bazasında hava hücumundan müdafiə manevrləri keçirilir. Rusiyanın Müdafiə Nazirliyi bildirir ki, avqustun 18-də başlanan genişmiqyaslı manevrlər bütün MDB üzrə 20 havadan müdafiə və zenit birliklərini əhatə edəcək və sentyabrın 11-dək davam edəcək. "Döyüş Birliyi-2015" adlanan hərbi təlimlərdə Rusiya ilə yanaşı, Belarus, Qazaxıstan, Tacikistan, Qırğızıstan və Ermənistan da iştirak edirlər. Nazirlik bildirir ki, bu təlimlərə minədək hərbçi, "yer-göy" müdafiə tipli raketlər, döyüş təyyarə və vertolyotları çıxarılacaq.

Xatırladaq ki, Azərbaycan və Türkiyə arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən sonuncu hərbi təlimlər bu ilin mayından etibarən Naxçıvanda keçirilmişdi. Təlimdə 1000-dən artıq şəxsi heyət, 150-dən artıq döyüş və digər texnika, 50-yə yaxın artilleriya və reaktiv qurğu, 4 atəş dəstək vertolyotu, 6 ədəd zenit-raket qurğusu iştirak etmişdi. Naxçıvanda yaradılan Əlahiddə Ümumqoşun Ordusunun birləşmələri Türkiyə Silahlı Qüvvələrinin gücləndirilmiş tabor taktiki qrupları ilə birlikdə planauyğun şəkildə təlimləri başa vurmuşdular. Azərbaycan ordusunun rəhbərliyi tərəfindən Naxçıvandakı mövqelərimizdən İrəvanı darmadağın etməyə qadir imkanlarımızın olması barədə bəyanatlar o zaman Ermənistanda ciddi təşviş doğurmuşdu.

Yeri gəlmişkən, keçən ilin payızında düşmən helikopterinin məhv edilməsi Türkiyə-Azərbaycan birgə hərbi təlimlərindən sonraya təsadüf etmişdi. Hazırda da ermənilər növbəti itkilərlə üz-üzə qala biləcəklərinin fərqindədirlər. Adətən Rusiyaya arxalanan işğalçı ölkə Azərbaycanın təkləndiyini zənn edirdisə, artıq Türkiyə-Azərbaycan hərbi təlimləri, eyni zamanda Türkiyə-Azərbaycan-Gürcüstan arasında imzalanan anlaşmaya uyğun olaraq hərbi əməkdaşlığın uğurla davam etdirilməsindən ciddi şəkildə narahatlıq keçirir. Hətta türk dövlətlərindən ibarət ölkələrin "Turan Ordusu" yaratmaqla bağlı müzakirələr də vaxtaşırı gündəmə gəlir ki, bu da düşmənin yuxusunu pozur. Əvvəllər təlimlər komanda-qərargah xarakteri kəsb edirdisə, son bir ildə on minlərlə şəxsi heyətin, yüzlərlə döyüş texnikasının, hərbi hava, artilleriya qüvvələrinin iştirakı ilə bu təlimlər həyata keçirilir. Ekspertlər də əməkdaşlığı yüksək qiymətləndirir və bu əməkdaşlığın Qarabağın işğaldan azad edilməsi işində öz töhfəsini verəcəyinə böyük inam var.

**Hərbi ekspert Üzeyir Cəfərov deyir ki, bir peşəkar hərbçi kimi onun üçün Azərbaycanla Türkiyə arasında istənilən sahədə hərbi əməkdaşlıq çox mühüm və əvəzolunmaz amillərdən biridir:** "Ola bilsin bəzi dostlarımız buna adi bir xəbər kimi yanaşırlar. Amma bu əməkdaşlığın dərinliklərində o qədər mühüm faktorlar var ki, onu bəlkə də zaman özü göstərəcək". **Ü.Cəfərovun sözlərinə görə, bir vaxtlar bizə az qala nağıl kimi görünən məsələlər indi reallaşıb və gözlədiyimizdən də yaxşı vəziyyətdədir:** "Artıq iki ölkənin Hərbi Hava Qüvvələrinin iştirakı ilə son ilik ildə bir sıra taktiki təlimləri keçirilib. Bir neçə gündən sonra başlayacaq təlimlər də Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin xeyli sayda aviasiya vasitəsi, o cümlədən MiQ-29, F-16 qırıcı, Su-25 hücum, F-4E bombardmançı, C-130 Herkules hərbi-nəqliyyat təyyarələri, Mi-35 döyüş, Mi-17 və Sikorski UH-60 döyüş-nəqliyyat, Cougar AS532 axtarış-xilasetmə helikopterləri iştirak edəcəklər. Diqqət yetirdinizsə, əvvəlki təlimlərdən fərqli olaraq daha çox, daha müasir döyüş silahlarıdır. Ən önəmlisi isə bu birgə təlimlər zamanı iki ölkənin Hərbi Hava Qüvvələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, o cümlədən havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqlar yerinə yetiriləcək".

**Ekspertin sözlərinə görə, ötən ildən başlanan və bu il bir növ bu təlimlərin davamı olacaq bu praktiki məşğələlərin ordumuzun şəxsi heyəti üçün əhəmiyyəti çox böyükdür**: "Pilotlarımız F-16 qırıcı, Sikorski UH-60 döyüş-nəqliyyat, Cougar AS532 axtarış-xilasetmə helikopterlərinin şturvalları arxasında oturacaq və yeni döyüş vərdişlərinə yiyələnəcəklər. Bu, son dərəcə vacib döyüş elementlərindən biridir. Bir sözlə, Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin hələ bundan sonra da keçiriləcəyi çoxlu planlar mövcuddur. İnşallah, yaxın zamanlarda biz hələ çox maraqlı hadisələrin şahidi olacağıq. Sadəcə, bir qədər səbir etmək lazım gələcək".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyir ki, Zakir Həsənov müdafiə naziri təyin olunduqdan sonra Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı inkişaf edir, birgə hərbi təlimlərin sayı artır:** "Bu, doğru siyasətdir. Necə ki, Rusiya işğalçı Ermənistanı hərbi nöqteyi-nəzərdən himayə edir, onunla birgə hərbi təlimlər keçirir, eləcə də Azərbaycanın strateji müttəfiqi Türkiyə ilə hərbi əməkdaşlığı inkişaf etdirmək haqqı var. Bu mənada il yarımdır ki, az qala hər 3 aydan bir Türkiyə ilə birgə hərbi təlimlər keçirilir. Eyni günlərdə Rusiya da Ermənistanda hərbi təlimlər keçirir. Demək, avqustun 22-dən başlayacaq Türkiyə-Azərbaycan Hərbi Hava Qüvvələrinin birgə təlimləri həm də Rusiya ilə Ermənistana gərəkli mesajdır. Türkiyənin Hərbi Hava Qüvvələri bölgənin ən güclülərindəndir, ən müasir hərbi təyyarələrlə təchiz olunublar".

## Ermənistan narahatdır; ekspertlərdən Bakı və Ankaranın hərbi əməkdaşlığına yüksək qiymət: "Türkiyə-Azərbaycan Hərbi Hava Qüvvələrinin birgə təlimləri həm də Rusiya ilə Ermənistana gərəkli mesajdır..."

**E.Şahinoğlunun fikrincə, buna görə də Azərbaycan Hərbi Hava Qüvvələrinin bu təcrübəni mənimsəməsinə ehtiyac var:** "Çünki işğal altında olan torpaqlarımız uğrunda gələcək savaşın önəmli hissəsi məhz havada cərəyan edəcək. Hansı dövlət hava sahəsini nəzarətə götürsə, o da Dağlıq Qarabağ uğrunda hərbi üstünlüyə malik olacaq". **Ekspertin dediyinə görə, Türkiyə-Azərbaycan hərbi əməkdaşlığını hazırda iki amil də şərtləndirir:** "Birinci amil odur ki, Türkiyə Silahlı Qüvvələrinin rotasiya üzrə yeni komandanı təyin olunub. Bu təlimlərlə yeni komandan ilk gündən Azərbaycanla hərbi əməkdaşlığın konturlarını cızmış olur. Bundan başqa, həmin komandan Azərbaycana yeni hərbi attaşe göndərməlidir. Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının yüksək səviyyədə inkişafı həm də Azərbaycanda fəaliyyət göstərən hərbi attaşenin fəallığından asılıdır. Çünki həmin şəxs birbaşa Azərbaycan müdafiə naziri ilə təmasdadır və Bakıdan aldığı təklifləri Ankaradakı komandanlığının diqqətinə çatdırır. Eyni zamanda Türkiyə Silahlı Qüvvələrinin təkliflərini də Azərbaycan tərəfinə çatdırır və bu prosesi nəzarətdə saxlayır. İkinci amil isə odur ki, Türkiyə ordusu bu gün PKK və İŞİD terroru ilə mübarizə aparır. Türkiyə Silahlı Qüvvələri PKK-nın ölkə daxilindəki və xaricindəki mövqelərini bombalayır, terrorçularla təmas döyüşlərinə baş vurur. Bu zaman orduda şəhid olanlar var, ancaq terrorçuların da itkiləri az deyil. Belə bir çətin dövrdə Türkiyə Silahlı Qüvvələrinin Azərbaycanla birgə hərbi təlimlər keçirməsi ondan xəbər verir ki, Türkiyə ən ağır regional şəraitdə belə Azərbaycanı unutmur və strateji müttəfiqlə əvvəlcədən planlaşdırdığı hərbi təlimləri həyata keçirməkdə əzmlidir".

**Politoloq Arzu Nağıyev bildirdi ki, mütəmadi şəkildə keçirilən birgə hərbi təlimlər təqdir olunmalıdır:** "Bunun ən müsbət cəhəti də məhz Azərbaycan Hərbi Hava Qüvvələrinin NATO standartlarına uyğun olaraq döyüş taktikasına yiyələnmək və texnikanın sirlərini mənimsəməkdən ibarətdir. Ümumi təlimlərə gəldikdə isə Naxçıvanda bu il hər iki dövlətin hərbi qüvvələrinin çox uğurlu və genişmiqyaslı birgə təlimləri keçirildi. Yəni son vaxtlar regionda baş verən proseslər, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların effektiv alınması uçun belə birgə güc nümayişi də vacib amildir". **A.Nağıyev deyir ki, Rusiya hərbi təlimlərdə ermənilərlə eyni səviyyəli tərəfdaş kimi deyil, ikinci dərəcəli qüvvə kimi hərəkət edir:** "Əlbəttə ki, Azərbaycan və Türkiyə hərbi təlimləri onları narahat etməyə bilməz".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 182 (6210) 20 avqust 2015

# Deputatın tutdurduğu qarovulçuya 12 il cəza verildi

## Məhkəmədə Əsabil Qasımovun zavodundan Ermənistana un daşındığı açıqlandı; **Rövşən Hacızadə:** "Əsabil Qasımov öz qumarbaz ətrafını, yaxınlarını müdafiə etmək üçün məni həbs etdirdi"




**Avqustun 19-da Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə dələduzluqda ittiham olunan Rövşən Hacızadə və Qərib Əmiraslanovun cinayət işi üzrə məhkəmə sona çatıb. Dövlət ittihamçısı R.Hacızadənin 12, Q.Əmiraslanovun 8 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Hakimin elan etdiyi hökmdə R.Hacızadəyə heç bir güzəşt olmayıb, onun Qarabağ döyüşçüsü olması belə nəzərə alınmayıb. Onu dövlət ittihamçısının istədiyi cəza müddətinə həbsə məhkum edən hakim Q.Əmiraslanova münasibətdə loyallıq nümayiş etdirib və 3 il şərti cəza verməklə məhkəmə adlı proses sona çatıb. Beləliklə, deputat Əsabil Qasımovun xalası oğlu olan Q.Əmiraslanov məhkəmə zalından evinə, R.Hacızadə isə cəza evinə aparılıb.**

R.Hacızadə deputat Əsabil Qasımovun yaratdığı, hazırda oğlunun idarə etdiyi "Karat" MTK-da çalışıb. Faktiki qarovulçu olsa da, rəsmi sənədlərdə adı MTK-nın icraçı direktoru kimi qeyd olunub. Buna görə də ittiham aktında da adı "Karat" MTK-nın icraçı direktoru kimi keçir və məhkəmə qarşısına da bu vəzifənin daşıyıcısı kimi çıxarılıb. İttiham aktında yazılıb ki, Rövşən Hacızadə tanışı Qərib Əmiraslanovla qabaqcadan əlbir olub tamah niyyəti ilə rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil ediblər. Onlar MTK-nın Bakı şəhərində inşa etdiyi çoxmərtəbəli yaşayış binasında əvvəllər ayrı-ayrı şəxslərə satılmış 5 mənzili və 4 avtodayanacaq yerlərini təkrarən başqa şəxslərə satmaqla 1 milyon 112 min manat məbləğində pulu mənimsəyiblər. Buna görə də Rövşən Hacızadə Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı), Qərib Əmiraslanova isə 178.3.2-ci maddəsi ilə ittiham elan olunub.

**Məhkəmə prosesləri zamanı R.Hacızadə günahsız olduğunu dəfələrlə hakimin diqqətinə çatdırıb. Deyib ki, deputat Əsabil Qasımov böyük biznes şəbəkəsində çalışan qohumlarını ona məxsus gəlirlərdən, əmlaklardan özbaşına istifadədən çəkindirmək üçün onu həbs etdirib. Bununla yaxınlarına dərs vermək niyyəti güdüb. R.Hacızadə məhkəmədəki son sözündə isə deyib ki, Əsabil Qasımovun sifarişi ilə tutulduğundan məhkəmədən ədalət gözləmir, ona cəza veriləcəyinə də şübhəsi yoxdur:** "Burada mən yox, həmin əmlakları satıb pulunu mənimsəyən əsl iştirakçılar oturmalı idi. Çox təəssüf ki, Əsabil Qasımov öz qumarbaz ətrafını, yaxınlarını müdafiə etmək üçün məni həbs etdirdi. Mən Qarabağ döyüşçüsü olmuşam. Vətənim üçün canımdan keçmişəm. Marneulidə Əsabil Qasımovun taxıl zavodunda istehsal etdiyi un isə Ermənistana gedir. Mən həyatımı düşmənlə mübarizəyə sərf etmişəm. Bu adam isə milyonlarla vergidən yayınıb, özünə Bakıda biznes qurub. Bu gün onun şəriki olan "Azimport"un rəhbəri Rəşad Məmmədov həbsdədir. Bir gün Əsabil Qasımovun da etdiklərini araşdıran olacaq və o da şərikinin aqibətini yaşayacaq".

**R.Hacızadə deyib ki, onun MTK-ya məxsus mənzilləri satması haqda ittiham aktında yazılanlar cəfəngiyyatdır:** "Əsabil Qasımov gecə yarısı tikinti yerinə gəlib armaturları sayan adamdır. Necə ola bilər ki, mən binadan mənzil satım, onun xəbəri olmasın? Həmin mənzilin alt və üst mərtəbələrində Əsabil Qasımovun qaynı və qardaşı yaşayır. Mənzil 1 il təmir olunub. 1 il ərzində onun xəbəri olmadan binadakı mənzildə kimsə təmir apara bilərdi?"

**R.Hacızadənin vəkili Ceyhun Yusifov bildirdi ki, məhkəmə dövründə ittiham öz təsdiqini tapmadı:** "Faktiki olaraq Rövşən Hacızadənin dediyi təsdiqləndi. İttiham aktı və hökm hüququn aliliyinə istinad etmir. İşdən göründüyü kimi, Əsabil Qasımov Taleh Qasımov, Elçin Qasımov və Şamama Qasımovanın adına mövcud olan, bazar qiyməti 10 milyonlarla ölçülən əmlaklara dair Rövşən Hacızadəyə etibarnamə verib. Niyə o həmin əmlakları deyil, dəyəri dəfələrlə aşağı olan əmlakları müxtəlif şəxslərə satıb. Bu nə dərəcədə inandırıcıdır? Başqa bir məqam - məhkəmədə Rövşən Hacızadədən şikayətçi olmadı. Çoxsaylı vəsatətlərimiz təmin olunmadı. Rövşən Hacızadəyə 308.2 - vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə və 313-cü vəzifə saxtakarlığı ittihamlarının qarovulçuya verilməsi də hüquqla tərs mütənasibdir. Məhkəmə saxta itthamın bu hissəsində də mövqeyini göstərmədi".

C.Yusifov hökmdən apelyasiya şikayəti veriləcəyini də söylədi.

❑ E.MƏMMƏDƏLİYEV


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## "Azercell" ölkədə GSM şəbəkəsinin və Mobil İnternetin keyfiyyətinə görə lider mövqeyini saxlayır

**"Azercell Telekom" həm abunəçi sayına, həm də təqdim etdiyi rabitə və mobil internet xidmətinin keyfiyyətinə görə Azərbaycanın lider mobil operatoru olmaqda davam edir. "Azercell"in təklif etdiyi keyfiyyətli rabitə abunəçinin harada olduğundan asılı olmayaraq öz yaxınları ilə hər zaman rahat əlaqə qurmaq imkanı deməkdir. 2014-cü ildə 169-dan çox 2G/3G Radio Baza Stansiyası quraşdıran və 3G şəbəkəsinin tutumunu rekord səviyyədə (ölkə üzrə 48%, Bakı şəhəri üzrə 92%) gücləndirən şirkət bu ilin əvvəlindən indiyə qədər yeni 2G, 3G və 4G baza stansiyalarını abunəçilərin istifadəsinə verib. Təkcə avqust ayı ərzində "Azercell" 13 sayda 2G, 47 sayda 3G baza stansiyası quraşdırıb. Məlumat üçün bildirək ki, Azərbaycanın ən geniş və güclü şəbəkəsinə sahib olan və daima keyfiyyəti ilə seçilən "Azercell Telekom" son iki il ərzində öz şəbəkəsini 25% daha da gücləndirib.**

**Bir sıra innovativ konsepsiyaları ilk olaraq Azərbaycana gətirən "Azercell" ölkədə ilk dəfə olaraq GSM texnologiyası, GPRS/EDGE, həmçinin, 4G şəbəkəsini təqdim edib. Şirkətin təşəbbüsü ilə Azərbaycanın bir neçə universitetində 3G və 4G sınaq laboratoriyaları yaradılmışdır.**

**"Azercell" hər zaman olduğu kimi öz abunəçilərinin ən qabaqcıl texnoloji yeniliklər və keyfiyyətli rabitə sisteminin üstünlüklərindən faydalanmasını təmin etməkdədir.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

**"Azercell Telekom" MMC 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq, Azərbaycana "Azercell" gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən "Azercell Ekspres" ofisləri, mobil elektron xidməti "Asan İmza" və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51.3% olan "Azercell"in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2014-cü ilin sonuna "Azercell" abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə "Azercell" 3G, 2012-ci ildə isə 4-cü nəsil şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. "Azercell" Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır. "Azercell" dünyanın 17 ölkəsində fəaliyyət göstərən, ümumilikdə 186 milyon abunəçiyə xidmət edən və 27 min əməkdaçı olan TeliaSonera şirkətlər qrupunun bir hissəsidir.**






## "Bakcell" internet paketlərini yarı qiymətə təklif edir

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell" şirkəti abunəçilərinin yüksək sürətli mobil internetdən daha sərfəli qiymətlərlə faydalanmağı üçün yeni endirim kampaniyasına start verib.**

**14 avqust 2015-ci il tarixindən etibarən "Bakcell" abunəçiləri internet paketi aldıqda, kampaniya çərçivəsində ikinci eyni həcmli internet paketini yarı qiymətə əldə edə bilirlər.**

**40, 120, 360 və ya 600 MB həcmində istənilən internet paketini əldə etdikdən sonra, abunəçiyə ikinci internet paketin yarı qiymətə əldə edilməsi imkanı barədə məlumat SMS vasitəsilə göndərilir. İkinci internet paketini yarı qiymətə almaq üçün abunəçilərə hər dəfə 24 saat vaxt təqdim olunur.**

**Onu da qeyd edək ki, 4G abunəçilərinin sayına görə Azərbaycanda lider mövqeyə sahib olan "Bakcell" şirkəti eyni zamanda Azərbaycanda abunəçilərinə 4G rouminq xidmətlərini təqdim edən yeganə mobil operatordur. "Bakcell" abunəçiləri ölkə xaricində olarkən 20-dən çox rouminq tərəfdaşından hər hansı birinin şəbəkəsinə qoşularaq 150 Mbit/s çatan sürəti dəstəkləyən ən müasir LTE xidmətindən sərfəli qiymətlərlə faydalana bilərlər. Bundan əlavə, 4G rouminq xidmətindən istifadə üçün qiymətlər 3G xidmətində olduğu kimi qalır.**

***

### "Bakcell" haqqında

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell" şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. "Bakcell", Sür@ ticarət nişanı adı altında öz abunəçilərinə ən mükəmməl 3G və 4G mobil internet xidməti göstərir.**

**Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından biri olan "Bakcell", ən son texnologiyalar və abunəçilərinə xidmət edən insan resursları vasitəsilə Azərbaycan iqtisadiyyatına böyük həcmdə sərmayə yatırmaqda davam edir.**

**5000-dən artıq baza stansiyası sayəsində "Bakcell" şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93% -ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. İnnovasiyalar sahəsində lider olan "Bakcell" şirkəti öz Sür@ xidməti və yeni əməkdaşlıqlar vasitəsilə Azərbaycan xalqını ən yüksək səviyyəli mobil internet xidmətləri ilə təmin edir. "Bakcell"in 3G xidməti əhalinin 85%-ni, ölkə ərazisinin isə 70% -ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və bütün bölgələrdə təklif olunur. 250-yə yaxın pərakəndə satış nöqtəsi və paytaxt və bölgələrdə fəaliyyət göstərən 26 Müştəri Xidməti Mərkəzində "Bakcell" abunəçilərinə ən üstün müştəri xidməti göstərilir.**

**Son 4 il ərzində ən yaxşı mobil internet xidməti kimi öz təsdiqini tapmış 3G Sür@ xidmətindən sonra, 5 may 2015-ci il tarixində Bakcell özünün 4-cü Sür@ brendinin - 4G LTE xidmətinin kommersiya istifadəsinə verilməsini elan edib. Mobil internet sürətinin əhəmiyyətli dərəcədə artmasını təmin edən 4-cü Sür@ xüsusilə mobil olmaq və bütün məkanlarda internetə yüksək sürətli çıxış imkanı əldə etmək istəyən istifadəçilər üçün nəzərdə tutulub.**

**Uzunmüddətli tərəfdaşlıq müqaviləsi çərçivəsində "Bakcell" şirkəti bütün MDB məkanında "Mançester Yunayted"in ilk rəsmi telekommunikasiya və yayım partnyoru olaraq Azərbaycandakı futbol həvəskarlarına və xüsusilə, "Mançester Yunayted" azarkeşlərinə geniş çeşidli xüsusi və eksklüziv məzmun təqdim edir.**

**"Bakcell" və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun.**

**Qeyri-"Bakcell" abunəçiləri isə 055 0000 555 nömrəsinə zəng etməklə "Bakcell"in xidmətləri haqqında məlumat əldə edə bilərlər.**

YENİ MÜSAVAT
N 182 (6210) 20 avqust 2015

# Ucuz istirahətin yeni üsulu - Türkiyəyə Tiflisdən gedək!

## Bu cür səyahət paketi seçən azərbaycanlıları nə gözləyir; incə nüanslar, çətinliklər və sonda...

**Azərbaycanlıların yay istirahəti macəraları davam edir. Məzuniyyətini keçirən keçirib, keçirməyən hələ plan qurur, bəziləri isə... Azərbaycanın istirahət bölgələrini seçənlərlə yanaşı, ondan üz döndərənlər də az deyil. Sonuncuların seçimi isə heç şübhəsiz ki, Türkiyə olur.**
**Amma son 2 ildə ölkə vətəndaşı üçün ən optimal səfər variantlarından biri Türkiyəyə Tiflis üzərindən getməkdir.**

Yerli turizm şirkətləri də vətəndaşlara turpaketləri iki variantda təqdim edir: Birbaşa Bakıdan gedəcəksiz, ya Tiflisdən? Məlum sualın verilməsi də əbəs deyil, çünki ortada ciddi qiymət fərqi var. Bakıdan olan turpaketi seçmək az qala lüks sayılır. Çünki AZAL şirkətinin təyin etdiyi qiymətlər sayəsində turpaketlərin qiyməti ceyran belinə çıxır.

### Tiflisdən Türkiyəyə istirahətə getmək.... 1500 azn qənaət deməkdir...

Turizm agentliklərinə müraciət edən vətəndaşlara ailəvi turpaketlər təqdim olunarkən məlum olur ki, buradakı məbləğin 70 faizini bilet qiymətləri təşkil edir. Çox vaxt da maddi imkanı nisbətən məhdud olan ailələr məhz biletlərin qiymətlərindəki şişirtməni görüb, bu paketdən imtina edirlər. Bir çox hallarda isə nisbətən ucuz variantlar üçün Bakı-Antalya-Bakı, Bakı-Bodrum-Bakı, Bakı-İzmir-Bakı turları əvəzinə Gəncə-Antalya-Gəncə, Gəncə-Bodrum-Gəncə ya da Tiflis-Antalya-Tiflis, Tiflis-İzmir-Tiflis turlarını seçirlər.

Son bir neçə ayda Tiflisdən baş tutan səfərlərlə bağlı seçimlər artıb. Belə ki, artıq yerli turizm şirkətləri də bunu əhaliyə variant olaraq təqdim edir. "Cibinə" qənaət etmək istəyən ailələr üçün bu seçimin üstünlüklərinə baxaq.

Elementar misal: 2 nəfərin Bakıdan 1 həftəlik Antalya istirahət paketinin qiyməti 1500 manatdırsa, bu, Tiflisdən 1000 manata başa gəlir. Ekspertlər turpaketin tərkibindəki bütün xidmərlərin *(hotel, istirahət şərtləri, qidalanma)* eyni olduğunu, amma Tiflis turpaketlərinin qiymətinin iki nəfər üçün 500 manat ucuz olduğunu bildirir. Müşahidələr də göstərir ki, son vaxtlar xüsusən ailələr bu seçimə üstünlük verir. Çünki Bakıdan 4-5 min manata başa gələn 4 nəfərlik turpaketlər Tiflisdən uçuş seçimində 2000 manatdan baha olmur.

### Şahin Cəfərli: "Biz eyni putyovka ilə Bakıdan uçsaq, təxminən 1000 manat artıq pul ödəməli olacaqdıq"

**Bugünlərdə Türkiyəyə Tiflis üzərindən istirahət variantını seçən tanınmış jurnalist-ekspert Şahin Cəfərlinin də maraqlı təəssüratları var. Müsahibimiz deyir ki, Azərbaycan vətəndaşları, xüsusən də paytaxt sakinləri üçün xarici ölkələrə Bakıdan uçmaq fiziki baxımdan rahatlıq deməkdir. Onun sözlərinə görə, azyaşlı övladları ilə səfərə çıxan ailələr üçün bu faktor daha da önəmli hala gəlir:**
"Lakin məlum problem - yəni AZAL-ın xidmətlərinin həddən artıq bahalığı aşağı və orta gəlirli təbəqənin Gürcüstan vasitəsilə səfər etmək variantına üstünlük verməsinə səbəb olur. İnsanlar düşünür ki, AZAL-ın aviabiletinə külli miqdarda pul verməkdənsə, yol yorğunluğu da olsa, Gürcüstandan uçaram, pulum da cibimdə qalar. Məsələn, biz eyni "putyovka" ilə Bakıdan uçsaq, təxminən 1000 (min) manat artıq pul ödəməli olacaqdıq. Bu səbəblə, Tiflis üzərindən Türkiyənin "Loukoster" firması vasitəsilə Türkiyəyə yollanmaq variantını seçdik. AZAL qiymət siyasətini əsaslandırarkən çox vaxt öz xidmətlərini, əsasən də yemək servisini önə çəkir. Halbuki 2,5-3 saatlıq uçuşlar üçün yemək o qədər də vacib deyil. "Loukoster" şirkətinin verdiyi buterbrod, şirə, çay yetərlidir. Təyyarələr yeni və təmizdir, müştərilərini vaxtında, etibarlı şəkildə mənzil başına çatdırır".

**Ş.Cəfərlinin Gürcüstan vasitəsilə Türkiyəyə səfər edən vətəndaşlarımız üçün də maraqlı tövsiyələri var:**
"Bu formada səfər edən vətəndaşlarımız vaxt məsələsini uyğunlaşdırsalar, daha yaxşı olar. Gürcüstana çatdığınız vaxtla uçuş saatı arasında böyük fərq varsa, hotel-hosteldə yer tutmağınız lazım gəlir. Bu, ən çox qatarla gedənlərə aiddir. Qatar Tiflisə səhər saatlarında çatır, uçuşlar isə adətən gecə vaxtı olur. Aradakı təxminən yarım sutkalıq zamanı, sadəcə, şəhərdə gəzməklə, ya da gedib hava limanında gözləməklə keçirmək mümkün deyil, xüsusən də uşaqla getmisinizsə. Qalmaq üçün yer tapmalısınız, bunun isə öz çətinlikləri var. Əvvəla, turizm mövsümünün qaynar vaxtında qiyməti əlverişli olan hotel, yaxud hostel tapmaq çətindir. İkincisi də, bu, əlavə xərc deməkdir. Yemək amilini, eləcə də şəhər daxilində hərəkət və hava limanına getmək üçün taksi xidmətindən isitifadə etmək məcburiyyətini də əlavə etsək, heç də əhəmiyyətsiz olmayan əlavə xərc miqdarı ortaya çıxır".

### "Tiflisə qatarla getmək məsləhət deyil"

**Müsahibimiz Gürcüstan vasitəsilə Türkiyəyə uçan insanlarımıza qatarla getməyi məsləhət görmədiyini dedi. Onun sözlərinə görə, yay fəslində yolçuluq üçün qatardan istifadə etməyin bir mənfi tərəfi də ondan ibarətdir ki, sərhəd-gömrük yoxlaması təxminən 3 saat davam edir və bu müddətdə qatar dayandığı üçün kondisioner çalışmır:**
"Çarəsiz şəkildə gözləyirsiniz. Ən məqbul variant avtobus (və ya başqa avtomobillə) uçuş saatına yaxın bir vaxtda "Sınıq Körpü"yə gedib çatmaq, sərhədi keçdikdən sonra taksi ilə birbaşa Tiflis hava limanına yollanmaqdır. İstənilən halda, Tiflis variantı maddi baxımdan daha sərfəlidir. Bu isə dünyanın hər yerində insanlar üçün ən vacib amildir".

### Tiflis turistlərini gözləyən çətinliklər, incə detallar...

**Bu günə qədər Tiflis üzərindən Türkiyənin Bodrum, Antalya, Quşadası.... kimi bölgələrinə istirahət edən bəzi turistlərimiz arasında apardığımız rəy sorğularının nəticəsi isə ortaya ilginc məqamlar çıxarır. Ucuz başa gəlsin deyə bəzən əziyyətə qatlaşmalı olan insanlarımız aşağıdakı nüansları nəzərə alsalar, daha rahat istirahət edər və bir çox hallarda xəyal qırıqlığı yaşamazlar:**

**1.** Türkiyəyə Tiflis üzərindən səyahət etmək istəyən Bakı sakini öncə Tiflisə çatmaq üçün ən uğurlu və rahat variantı seçməlidir. Maşını olan sakinlər təbii ki, şəxsi maşınları ilə Tiflisə qədər gedir və maşınlarını aeroportdakı dayanacaqda saxlayıb, uçuşunu gerçəkləşdirir. Və ya şəhərdəki məqbul qiymətə olan dayanacaqlardan birində maşınına yer tapıb, aeroportun yolunu tutur.

**2.** Maşını olmayanlar isə ya qatar, ya da avtobus variantından istifadə edir. Qatar variantı barədə ekspertimizin yuxarıda dediyi fikirləri yaddan çıxarmayaq. Qatar çoxumuza "gecə yata-yata gedəcəm" arzusunun müşayiəti ilə çox maraqlı görünsə də, əslində sərhəddəki məşəqqəti də nəzərə almaq lazımdır. Üstəlik, bilet qiymətlərinə də diqqət edək. Bakı-Tiflis reysi üzrə bilet qiymətləri aşağıdakı kimidir: Pl (plaskart) - 13.26 AZN, KP (kupe) - 21.20 AZN, SV (xüsusi vaqon) - 42.92 AZN.

**3.** Bir də Tiflisə çatmağın avtobus variantı da var ki, burda da incə detallara diqqət etmək lazım. Məlumdur ki, Bakı avtovağzalından Tiflisə gedən avtobusların həmısı bir qayda olaraq axşam saatlarında yola düşür. Axşam saat 22.00, 23.00 və 00.00-da... Bu isə avtomatik olaraq avtobusun səhər saat 7-8 radələrində Tiflis avtovağzalında olacağı anlamına gəlir. Qrafiki məhz bu səbəbdən həmin incəliklər üzrə - təyyarə reysinin saatı ilə avtobusun Tiflisə çatma saatının uyğunlaşdırılması - qurmaq lazımdır. Avtobus sürücülərinin dediklərinə inansaq, məhz Tiflisə, Gürcüstanın azərbaycanlılar yaşayan kəndlərinə hərəkət edən avtobuslara gündüz saatlarında yola çıxmaq qadağası rəsmən qoyulub. Bakı-Tiflis avtobuslarında gediş haqqı isə 12 AZN-dir.

**4.** Avtobus variantında əlverişli bir məqam isə Bakı-Sınıq Körpü istiqamətinə hərəkət edən avtobuslardan istifadə etməkdir. Belə ki, Tiflisdən bir qayda olaraq gecə saatlarında baş tutan Türkiyə uçuşlarına çatmaq istəyən azərbaycanlılar Tiflisdə daha çox vaxt itirib, pul xərcləməmək üçün *(təbii ki, əgər Tiflisdə səyahət planları yoxdursa)* Bakı-Sınıq Köpü istiqamətində hərəkət edən avtobus və ya mikroavtobuslardan istifadə edə bilər. Təyyarənin uçuş vaxtına 4 saat qalmış Sınıq Körpüdə olmaq, sərhədi keçmək və ordan bir taksiyə 25-30 AZN ödəməklə Tiflis aeroportuna gəlmək mümkündür.

**5.** Bir qədər də qanqaraldıcı məqamlar barədə. Yuxarıda da qeyd etdiyimiz kimi, Tiflisdən Türkiyənin şəhərlərinə uçuş bir qayda olaraq gecə saatlarında baş tutur, daha çox gecə 12-dən sonra. Bu isə təyyarənin həmin şəhərə 2-3 saat sonra çatacağına sübutdur. Aeroportda bir qədər ləngimə, sizi qarşılayacaq turizm agentliyi nümayəndələrinin turistləri qarşılama, avtobusla hotellərə paylaşdırma prosesini nəzərə alsaq, tətilinizin başlayacağı məkana ən geci səhər saat 5-6 radələrində çatmış olacaqsız. Əsl problem isə burda başlanır. Çünki hotellər müştərilərini günorta saat 2-dən sonra otaqlarında yerləşdirir. Hətta onların bron etdikləri hotel nömrələri boş olsa da. İzahat isə bu cürdür: otaqda təmizlik aparılmalı, ondan sonra turistlər yerləşdirilməlidir. Otaqlar beynəlxalq normalara görə, günorta 12.00-dən sonra boşaldılır. Bu isə Azərbaycandan gələn turistin gecə saat 5-dən günorta saat 2-yə qədər ailəsi ilə birgə hotelin lobbisində, divanda məskunlaşacağı anlamına gəlir. Doğrudur, həmin müddət ərzində siz otaqda qalmanın xaricində hotelin bütün xidmətlərindən - yemək, hovuzda, dənizdə çimmək, əyləncə, attraksionlardan istifadə hüququ qazanırsız. Amma xüsusən də uşaqlı ailələr üçün bu gözləmə müddəti heç də az gərginliklə keçmir. Çünki rahatlanmağı otaqda uzanmaq, əşyaları yerbəyer etmək, uşaqları yuyundurmaq kimi qəbul edənlər üçün "lobbi varianti" işgəncədir.



**6.** Səyahət bitəndən sonra Tiflisdən Bakıya qayıtmaq istəyənlər üçünsə daha əlverişli variantlar var. Onlar da aeroportdan Sınıq Körpüyə qədər taksiylə gəlib, burdan taksiylə məqbul qiymətə Bakıya gələ bilər. Çünki körpüdə Bakı istiqamətinə gedən minik avtomobili taksisi, eləcə də mikroavtobus xeyli saydadır. Məsələn, hazırda dediyimiz ünvandan Bakıya qədər 90 AZN-ə 4 nəfəri gətirən taksilər də var ki, bu, nisbətən əlverişli və rahat variant hesab oluna bilər.

Sonda... Bütün bu detalları oxuyandan sonra insan "belə əziyyətli tətilmi olar" deyə düşünsə də, hər şey göründüyü qədər əzablı deyil. Sadəcə, yazdığımız incə nüansları nəzərə alıb, səfəri daha az əzablı, amma daha komfortlu hala gətirmək mümkündür. Və unutmaq olmaz ki, bu variant sizin ailə büdcəniz üçün ən azı 1000-1500 AZN-lik qənaət deməkdir. Ən böyük əzab isə bu məbləği könüllü şəkildə hansısa monopolistə hədiyyə etməkdir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
Son səhifə
N 182 (6210) 20 avqust 2015

# 3400 dollara meşə evləri

Son zamanlarda ucuz və asan inşa edilən meşə evləri çox satılmağa başlayıb. Kanadalı mühəndisin 3400 dollara inşa etdiyi ağac evlər yeni dəbin ən yaxşı nümunələrindəndir. Ucuza tikilməsi, asan inşa edilməsi və sahibin bəzi istəklərinə uyğun şəkildə inşa edilməsi evlərə olan tələbi artırır. Kanadada yaşayan 29 yaşlı Josef Dubosi də meşə evləri inşa etməyə qərar verənlərdən biridir. O, paytaxtdan 55 kilometr uzaqda inşa edilən Dubois adlı evini bitirmək üçün 3 ay, hər gün 14 saat çalışıb. Bu evlərin kiçik ailələr üçün ideal olduğunu düşünən mühəndis, artıq hər kəsin ucuz qiymətə ev ala biləcəyini də deyir.






## Sürücünün intiqamı

Avtobusda yüksək səslə danışan qadına əsəbiləşən avtobus sürücüsü ondan qəribə şəkildə intiqam alıb. İrlandiyada baş verən hadisə zamanı bir qadın evinə getmək üçün avtobusa minib. Avtobusda çox yüksək səslə telefonla danışmağa başlayıb. Sürücünün xəbərdarlıqlarına baxmayaraq, səsini aşağı endirməyən və danışmaqda davam edən qadını sürücü yol ortasında avtobusdan endirib. 23 yaşlı Judi Beverley adlı qadın başına gələnlər haqqında bunları deyib: "Avtobusa mindikdən sonra əvvəlcə 6 yaşlı oğluma zəng etdim. Xəstə idi, onunla danışdım. Sonra yaxın rəfiqəm zəng etdi və onunla danışmağa başladım. Sürücü avtobusu kənara çəkdi və enməmi istədi. Evimdən çox uzaqda idim və yenidən avtobusa minmək üçün pulum yox idi. Məni endirməməsi üçün yalvardım, lakin zorla endirdi. Bəzən yüksək səslə danışdığımı bilirəm. Lakin nə olursa-olsun bunu etməyə haqqı yox idi. Həmin avtobus şirkətini məhkəməyə verəcəyəm".

# Bulqurun faydaları

Bulqur- buğdanın qaynadılması, qurudulub qabığının soyulması və dəyirmanda üyüdülməsi ilə əldə edilir və insan sağlamlığında rol alan qidalardan sayılır. Sadəcə su və buğdadan ibarət olsa da protein, mineral, vitamin və liflə zəngindir. Eyni zamanda karbohidrat dəyərinin aşağı olması da onu dəyərli qida məhsullarından edir. Sarı və qəhvəyi olmaqla 2 növü olsa da, əsasən plovluq və küftəlik olaraq ayırd edilir. İndi görək bulqurun faydaları nələrdir...

İmmunitet sistemini gücləndirir.
Xərçəngdən qoruyur.
B vitamini ilə zəngindir.
Sinir və sinir sistemini gücləndirir.
Sink, maqnezium və xrom kimi minerallar ehtiva edir.
Gündəlik lif ehtiyacını ödəyir.
Bağırsaqların yaxşı işləməsinə kömək edir.
Tərkibində olan folikasit hamiləlik zamanı dölün zehni inkişafına təsir edir.
Qanda şəkəri yüksəltməz.
Çaki artırmaz.
Həzmi asanlaşdırır.





## Fit beyni çalışdırırmış

Türkiyənin Girəsun bölgəsində uzaq məsafədən əlaqə saxlamaq üçün istifadə edilən fit çalma Almaniyada araşdırma mövzusuna çevrilib. İngilis "Daily Mail" qəzetinin xəbərinə görə, danışmaq ya da yazmaq beynin sadəcə sol yarımkürəsini çalışdırır. Lakin fit çalaraq xəbərləşmək beynin həm sağ, həm də sol yarımkürələrini hərəkətə gətirir. Almaniyanın Ruhr Universitetində çalışan professor Onur Güntürk bu cür dillərin varlığına şahid olmağımızın önəmli olduğunu deyib. Onun sözlərinə görə, fit çalaraq xəbərləşmək təbiəti anlamaq üçün çox önəmlidir. Fitlə xəbərləşmə UNESCO tərəfindən insanlığın mədəni mirası adı altında tarixə salınıb. Bu xəbərləşmə üsulu Türkiyənin Quş kəndində telefon icad edilmədən əvvəl çox yayılmışdı. Kənd sakinlər, 50-90 metr məsafədən bir-birləri ilə xəbərləşərək həyatlarına davam edirdilər. "Quşdili" adlandırılan bu dil haqqında bir çox ölkələrdə yazılar yazılıb.




QOÇ - Saat 14-ə qədər olan ərəfə istisna olmaqla, qalan saatları yüksək əhval-ruhiyyədə başa vuracağınız ehtimal olunur. Axşama yaxın darıxdığınız insanlara baş çəkməyə çalışın.

BUĞA - Müəyyən çalarlarına görə bəxtinizə ziddiyyətli təqvim düşüb. Qarşılaşdığınız proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə yönələcək. Pul məsələlərində ehtiyatlı olun.

ƏKİZLƏR - İxtiyarınızda olan bu təqvimdə aktivliyi artırmağınız vacibdir. Bunun öhdəsindən gəlsəniz, ulduzlar sizə yardımçı olacaq. Yaxın adamlarınızdan xəstələnən varsa, mütləq ona baş çəkin.

XƏRÇƏNG - Həddindən ziyadə uğurlu ərəfədir. Mövcud sıxıntı və nigarançılığınızı aradan qaldırmaq üçün ətrafınızdakılar sizə yardımçı olacaqlar. Günün ikinci yarısı bu baxımdan daha münasibdir.

ŞİR - Əgər ixtiyarınızda olan bu təqvimdən zövq almaq istəyirsinizsə, oturaq işləri məhdudlaşdırın. Çünki ulduzlar bürcünüzə olduqca romantik görüş və əyləncələr bəxş edəcək. Buna hazır olun.

QIZ - Saat 16-ya qədər nəzərdə tutduğunuz planların böyük əksəriyyətini həyata keçirməkdə çətinliyiniz olmayacaq. Ailə-sevgi zəminində isə yeni mərhələyə qədəm qoyacaqsınız.

TƏRƏZİ - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq üçün əhəmiyyətli vaxtdır. Boş dayanmaqdansa səylərinizi birləşdirib yalnız irəli getməlisiniz. İşıq ucu gələn bütün yollara baş vurun.

ƏQRƏB - Günün ümumi görüntüsü işlərinizin normal tərzdə cərəyan edəcəyinə əsas verir. Hər hansı qanqaraçılığı və ya məyusluq ehtimalı yoxdur. Ailə zəminində isə hər şey ürəyinizcə olacaq.

OXATAN - Yaxın ünsiyyətdə olduğunuz insanların əksəriyyəti problemlərinizin həllində böyük rol oynayacaqlar. Bu, çıxardığınız qərarlardan, atdığınız addımlardan birbaşa asılı olacaq.

OĞLAQ - Maliyyə məsələlərində uğurlarınız mümkündür. Axşamı hər hansı məclisdə keçirməyiniz daxili nigarançılığınızı azaldacaq. Qonşu və qohumlarla münasibətləri məcrasından çıxarmayın.

SUTÖKƏN - Nəzərdə tutduğunuz əksər sahələrdə irəliləyişə nail olacaqsınız. Həmkarlarınızla ünsiyyətdə obyektiv olun. Öz müsahiblərinizə bacardığınız qədər güzəştə gedin. Böyüklərin məsləhətini qulaqardına vurmayın.

BALIQLAR - Bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Hansısa ciddi və riskli işlərə qol qoymamalısınız. Bu günün işini sabaha saxlamayın. Qərarlarınızda qəti olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dördəmlər evə gəlir



May ayında Almaniyadakı bir xəstəxanada dördəm dünyaya gətirən 65 yaşlı qadının övladları ilə birlikdə xəstəxanadan çıxmağa hazır olduğu açıqlanıb. Annegret Raunigk adlı qadın 13 uşaq anasıdır. 9 yaşlı qızının bacı istəməsindən sonra yaşlı qadın yenidən uşaq dünyaya gətirməyə qərar verib. Ukraynadakı bir xəstəxanada kimliyi bəlli olmayan qadın və kişinin hormonlarının köməyi ilə süni mayalanma etdirərək hamilə qalan qadın əməliyyatla uşaqlarını dünyaya gətirib. Raunigk dördəm dünyaya gətirən ən yaşlı qadın olaraq tarixə düşüb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300